QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 055 (5527) 24 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Xalq İlham Əliyevə "HƏ" deyir!



3

"İnsanların heysiyyatı ilə oynayan, milli-mənəvi dəyərlərimizə hörmətsiz yanaşan insanlar üçün platforma olmamalıdır"



3

MSK Səhiyyə Nazirliyi ilə birgə seminar-müşavirə keçirib



4

Oleq Ponomar: "Azərbaycandakı sabit ictimai-siyasi mühit seçkilərin şəffaf keçirilməsini şərtləndirir"






# Qarabağ veteranlarının seçimi Cənab İlham Əliyevdir

***Dünən YAP Səbail rayon təşkilatı Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təşviqat-təbliğat kampaniyası çərçivəsində Qarabağ veteranları ilə görüş keçirdi.***



Görüşü giriş sözü ilə YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev açaraq, qeyd etdi ki, ölkə başçısı İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan iri yerli və regional layihələr sayəsində Azərbaycan dövləti öz iqtisadi nəticələri ilə aparıcı dövlətlər sırasındadır: "2003-cü ildən həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti iqtisadi islahatları dərinləşdirib, ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığı təmin olunub. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin 2003-cü ildən bu günə qədər ölkəyə rəhbərlik etdiyi dövrdə iqtisadi uğurlar, iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsi, qeyri-neft sektorunda inkişafın sürətləndirilməsi, investisiya mühitinin yaxşılaşdırılması və regionlarda sahibkarlığın, istehsal, sosial infrastrukturların inkişafı, ölkədə yoxsulluğun səviyyəsinin əhəmiyyətli şəkildə azaldılması və s. kimi nailiyyətlər əldə olunub."

Rayon təşkilatı sədri bildirdi ki, ölkəmizdə müharibə əlilərinə, veteranlara da dövlətimiz tərəfindən böyük qayğı ilə yanaşılır. Onların həyat səviyyəsinin yüksəlməsi, sosial təminatı ilə bağlı ardıcıl işlər görülür, mənzil probemləri və s. həllini tapmış olur.

O, qayğı ilə əhatə olunan Qarabağ veteranlarını 11 aprel tarixində keçiriləcək prezident seçkilərdə fəal iştirak etməyə və gələcəyimizin daha da firavan, xoş olması naminə Yeni Azərbaycan Partiaysının namizədi Cənab İlham Əliyev səs verməyə çağırdı.

Görüşdə çıxış edən seçicilərdən Yura Qaraqanov, Xətai Baxışov və başqaları vurğuladılar ki, Qarabağ veteranları həmişə dövlətə və dövlətçiliyə sədaqətləri ilə seçilmişlər. Qeyd olundu ki, respublikamızda hökm sürən ictimai-siyasi sabitliyə, iqtisadi yüksəlişə, hakimiyyətlə xalq arasındakı vəhdətə görə, Cənab Prezident İlham Əliyevə yekdilliklə səs verəcəklər.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Hasan Oktay: "Azərbaycanda seçkilər uğurla keçiriləcək"

***Azərbaycan gənc bir dövlət olaraq demokratiyanın əsas formulası olan prezident seçkiləri ərəfəsindədir. Bu mənada gənc Azərbaycan dövlətində baş tutacaq bu seçkilərə həm yerli, həm də beynəlxalq aləmdə diqqət böyükdür. Bu sözləri sechki-2018.az saytına açıqlamasında Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (KAFKAZSAM) rəhbəri Hasan Oktay deyib.***

O bildirib ki, Azərbaycan bölgənin güclü dövlətlərindən biridir və ölkədə demokratik seçkilərin keçirilməsi istiqamətində xeyli ciddi addımlar atılıb: "Bundan əlavə, 70 il sovet ittifaqının tərkibində olmasına baxmayaraq, ölkədə azad sözün, medianın inkişafı istiqamətində önəmli işlər görülüb. Azərbaycan Şərqdə ilk demokratik dövlətdir. Bu baxımdan ölkənizdə demokratiyanın 100 illik tarixi var. Bu önəmli göstəricidir".



H.Oktay qeyd edib ki, seçkilərdən sonra Azərbaycanın daha da inkişafı istiqamətində siyasi və iqtisadi islahatların aparılması gözlənilir: "Bu baxımdan hazırda diqqət Azərbaycanadır. Hesab edirəm ki, dost və qardaş Azərbaycanda seçkilər uğurla keçiriləcək. Bu seçkilər ölkənizin gələcəyi üçün mühüm hadisə olacaq".

## Sərəncam: Beyləqan rayonunda Olimpiya İdman Kompleksinin tikintisinə 16,5 milyon manat ayrılıb

***Prezident İlham Əliyev martın 23-də "Beyləqan rayonunda Olimpiya İdman Kompleksinin tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.***

AZƏRTAC xəbər verir ki, Beyləqan rayonunda Olimpiya İdman Kompleksinin layihə-smeta sənədlərinin hazırlanması və tikintisinin başa çatdırılması məqsədilə Prezidentin 2018-ci il 22 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.9.11-ci yarımbəndində göstərilmiş məbləğin 16,5 milyon manatı Gənclər və İdman Nazirliyinə ayrılıb.

## Əli Həsənov: "İnsanların heysiyyatı ilə oynayan, milli-mənəvi dəyərlərimizə hörmətsiz yanaşan insanlar üçün platforma olmamalıdır"



"Cəmiyyətimizdə baş verən hadisələr və cərəyan edən proseslərlə bağlı müxtəlif siyasi qüvvələrin, ayrı-ayrı ictimaiyyət nümayəndələrinin konstruktiv müzakirəsini, sağlam polemika və sərbəst fikir mübadiləsini təşkil etmək mənim bundan öncə yazdığım hər iki statusun başlıca məqsədi olmuşdur". SİA xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Əli Həsənov Facebook səhifəsində yazıb. Onun fikrincə, son iki gündə sosial şəbəkədə sözügedən istiqamətdə sağlam polemikaların qurulması da belə deməyə əsas verir ki, dialoq yaxşı nümunənin başlanğıcıdır: "Hesab edirəm ki, son iki gündə Facebook səhifələrində bu istiqamətdə müşahidə olunan dialoq yaxşı nümunənin başlanğıcı hesab oluna bilər. Ən son olaraq, Tapdıq Fərhadoğlunun "Amerikanın səsi" radiosunun Bakı bürosu üçün hazırladığı materialı da qənaətbəxş təşəbbüs kimi dəyərləndirmək lazımdır".

"Hamı razılaşar ki, söyüş və təhqir ritorikası, insanların şəxsiyyətinin, şərəf və ləyaqətinin alçaldılması heç kimə başucalığı gətirmir, əksinə, bu üsuldan istifadə edənlərin mənəvi və əxlaqi dəyərlərdən yetərincə uzaq düşdüyünü nümayiş etdirir"-deyə statusuna davam edən Əli Həsənov həmçinin qeyd edib ki, virtual məkan öz şəxsi ambisiyalarını hər şeydən üstün tutan, insanların heysiyyatı ilə oynayan, milli-mənəvi dəyərlərimizə hörmətsiz yanaşan insanlar üçün platforma olmamalıdır: "Axı cəmiyyətimizdə kifayət qədər sağlam düşüncəli, yüksək intellektə malik, öz dünya görüşünə, əqidəsinə uyğun fikir bildirməyi və onu müdafiə etməyi bacaran insan var".

Prezident köməkçisi statusunun sonunda sağlam və kollektiv mühitin bərqərar olması üçün müzakirələrə qoşulmasının zəruriliyini xüsusilə qeyd edib: "Düşünürəm ki, potensialı olan hər bir şəxs, xüsusilə siyasi fəallar, ictimai təşkilatlar və media nümayəndələri bu müzakirələrə qoşulacaq və mövcud xoşagəlməz halların aradan qaldırılmasına, sağlam və konstruktiv mühitin bərqərar edilməsinə öz dəyərli töhfəsini verəcəkdir".

*Rövşən NURƏDDİNOĞLU*

## MSK Səhiyyə Nazirliyi ilə birgə seminar-müşavirə keçirib

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərinin yüksək səviyyədə hazırlanıb, azad, ədalətli və şəffaf keçirilməsi, habelə vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün müxtəlif istiqamətli layihələr davam etdirilir. SİA-nın verdiyi məlumata görə, Prezident seçkiləri ilə bağlı maarifləndirmə proqramı çərçivəsində dünən növbəti layihə - Mərkəzi Seçki Komissiyası və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə seminar-müşavirəsi keçirilib. Komissiyanın inzibatı binasında baş tutan tədbir səhhəti ilə əlaqədar seçicilərin müvəqqəti olduqları yerlərdə Azərbaycan Respublikası Prezidenti seçkilərinin təşkilinə dair məsələlərə həsr olunub.



MSK sədrinin müavini Natiq Məmmədovun və səhiyyə nazirinin müavini Elsevər Ağayevin açılış nitqləri ilə başlayan seminar-müşavirədə MSK üzvləri, Səhiyyə Nazirliyinin rəsmiləri və MSK Katibliyinin nümayəndəsi tərəfindən səhhəti ilə əlaqədar müvəqqəti məskunlaşma yerlərində olan şəxslərin seçici kimi əhatə dairəsinin müəyyən edilməsi və seçki məntəqələrinin yaradılması, həmin məntəqələrdə səsvermənin təşkili, nəticələrin müəyyən olunması və ictimailəşdirilməsi, seçicilərin səhhəti ilə əlaqədar müalicə müəssisələrində yerləşdirilməsi, müəssisədən müəssisəyə köçürülməsi, çıxarılması, onların qeydiyyatı və siyahılarının tərtib edilməsi qaydaları, habelə səsvermə günü məntəqə seçki komissiyalarının vəzifələri və səsvermə prosedurları barədə məruzələr edilib və təqdimatlar keçirilib.

Tədbirdə Mərkəzi Seçki Komissiyasının üzvləri, Səhiyyə Nazirliyinin nümayəndələri, MSK Katibliyinin aidiyyəti struktur bölmələrinin əməkdaşları, müvafiq dairə və məntəqə seçki komissiyalarının sədrləri, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edib. Kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılan seminar-müşavirə mövzu ilə əlaqədar müxtəlif məsələlər ətrafında müzakirələrlə davam edib, həmçinin iştirakçıların sualları cavablandırılıb.

## İranlı turist Bəhruz Daşdı: "Azərbaycanlılar çox qonaqpərvərdirlər"

"Hər il Novruz bayramında Azərbaycana gəlirik. Burada qohumlarımız var. Əmilərim, bibilərim Azərbaycanda yaşayırlar. Gəlib həm istirahət edir, həm də qohumlarımıza baş çəkirik. Novruz bayramını Azərbaycanda xüsusi mərasimlərlə qeyd edirlər ki, bu da bizim çox xoşumuza gəlir." Bu sözləri Qubada AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində İranın Parsabad şəhərindən ölkəmizə gələn Bəhruz Daşdı söyləyib. İranlı turist deyib: "Qubanın təbiəti çox gözəldir. Füsunkar təbiəti, dağları və təmiz havası var. Ən əsası isə azərbaycanlılar çox qonaqpərvərdirlər". Bayram günlərində Quba rayonuna gələn turistlər daha çox Qəçrəş istirahət zonasına üz tutublar. Quba Turizm İnformasiya Mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, bayram günlərində rayona gələn turistlərin sayı adi günlərdəkindən 50-60 faiz çoxdur.

## "Söyüş və təhqir küçə psixologiyasının məhsuludur"



*Vüqar Rəhimzadə, "İki Sahil" qəzetinin baş redaktoru, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü*

Həyatımızın mühüm bir hissəsi olan ənənəvi media ilə yanaşı, elektron KİV, xüsusilə də sosial media və sosial şəbəkələr sürətlə inkişaf edir. Hətta dünyanın süpergüc dövlətlərində belə siyasi kampaniyalar zaman sosial şəbəkələr mühüm faktor kimi çıxış edir. Azərbaycan da beynəlxalq birliyin mühüm bir tərkib hissəsi kimi bu inkişafdan özünə pay götürür. Artıq ölkəmizdə sosial şəbəkə istifadəçilərinin sayı kifayət qədərdir. Sosial şəbəkələr artıq siyasi arenada özünə yol açaraq geniş polemika, müzakirə meydana çevrilib. Təbii ki, bu vasitədən düzgün, yerində və əxlaq çərçivəsində istifadə etdikdə daha effektli və təsirli olur. Təəssüf ki, bir neçə müddətdir ki, şəxsi ambisiyaların əsirinə çevrilmiş bəzi insanlar bütün "sərhədləri" aşaraq heç bir əxlaq, etik normalara sığmayan fikirlər səsləndirir, mübarizə üsulunun ən "axırıncı yoluna" əl atırlar.

Qeyd etdiyimiz kimi, sosial şəbəkələr həyatımızın mühüm bir parçasına çevrilib. Bu virtual məkandan yaşından, cinsindən, sosial statusundan asılı olmayaraq hər kəs öz fikir və düşüncələri, dünya görüşü və tələbatına uyğun istifadə edir. Bu mənada hər bir istifadəçi virtual da olsa ictimaiyyət arasında olduğunu unutmamalı, paylaşdığı fikir və düşüncələrinə diqqət yetirməlidir. Təəssüf ki, qeyd etdiyimiz bir qrup insan bütün milli, mənəvi dəyərlərin üstündən xətt çəkərək dövlətə, onun dəyərlərinə, dövlət rəsmilərinə qarşı çirkin kampaniya aparırlar. Sözsüz ki, bu, yolverilməzdir. Söyüş və təhqir küçə psixologiyasının məhsuludur və heç kimə başucalığı gətirmir. Ona görə də bu cür ünsürlərə qarşı ciddi şəkildə mübarizə aparmalı, bütün platformalarda, eyni zamanda virtual məkanda etik normalara əməl etməklə onlara lazımı cavab verməliyik, sivil mübarizə üsulunu aşılamalıyıq.

## Bəhruz Quliyev: "Siyasi mübarizə etik çərçivədən kənara çıxmamalıdır"



"Bu gün ölkəmiz onsuz da erməni quldurları tərəfindən terrora məruz qalıb və torpaqlarımızın 20 faizi işğal altındadır. Belə bir məqamda hamılıqla düşmənlərimizə qarşı mübarizə aparmaq əvəzinə, təəssüf ki, bu gün virtual məkanda Azərbaycana qarşı xaricdəki müxtlif qruplar tərəfindən azərbaycanlıların vasitəsilə mənəvi terror gerçəkləşdirilməsinin şahidi oluruq". SİA xəbər verir ki, bu fikirləri "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun sosial şəbəkədəki son statuslarına münasibətini bildirərkən yazıb.

Baş redaktorun fikrincə, artıq həyəcan təbili çalmağın vaxtıdır: "Çünki, siyasi mübarizə küçə söyüşləri və iyrənc təhqirlər səviyyəsinə endirilib. Dövlət maraqlarımıza, atributlarımıza qarşı yönəldilən, əxlaqi dəyərlərə sığmayan hücumlar dövlət məmurlarını, baş redaktorları, sadə jurnalistləri, ziyalılar zümrəsini, bir sözlə, ictimai fəal şəxsləri narahat edir. Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənovun son günlər narahatçılığı, sosial şəbəkələrdə yazdığı statuslar məncə bütün Azərbaycan xalqının rəyi və sifarişidir".

"Belə məsələlərdə kimliyindən və siyasi əqidəsindən asılı olmayaraq, tərəflər ümumdövlət, ümumxalq maraqlarına xatir etik çərçivəni gözləməli, ehtiyac olarsa sağlam polemika və dialoq çərçivəsində ortaya çıxan problemləri həll etməlidirlər", - deyə qeyd edən Bəhruz Quliyev sonda qeyd edib ki, dövlətinə, xalqına və ailəsinə hörmət edən hər kəs bu iyrəncliklərə reaksiya verməlidir: "Bu isə düşmən qüvvələri sevindirir və xalqımızı mənəvi sarsıntıya məruz qoyur. Məncə siyasi mübarizə etik çərçivədən kənara çıxmamalı və bunlar çözülməlidir...".

*Rövşən NURƏDDİNOĞLU*

## Nazir müavini: "Səhiyyə Nazirliyi seçkilərin şəffaf keçirilməsinə öz töhfəsini verib"



"Azərbaycanda aprelin 11-ə təyin edilmiş prezident seçkilərində səhhəti ilə əlaqədar tibb müəssisələrində olan seçicilərin səs verməsi üçün lazımi şərait yaradılıb". SİA-nın verdiyi məlumata görə, bunu səhiyyə nazirinin müavini Elsevər Ağayev "Səhhəti ilə əlaqədar seçicilərin müvəqqəti olduqları yerlərdə Azərbaycan Respublikasının Prezidenti seçkilərinin təşkili" mövzusunda seminar-müşavirədə çıxışı zaman deyib.

Onun sözlərinə görə, Səhiyyə Nazirliyi Azərbaycanda bütün seçkilərin şəffaf keçirilməsinə öz töhfəsini verib. O qeyd edib ki, prezident seçkilərində seçki günü on minlərlə insan xəstəxanalarda olacaq: "Onların səs verməsi üçün tibb müssisələrində seçki məntəqələri yaradılıb. Biz ötən seçkilərdə də tibb müəssisələrində olan insanların səs verməsi üçün lazımi şərait yaratmışıq".E.Ağayev həmçinin seçkilərlə əlaqədar tibb işçilərinin maarifləndirildiyini diqqətə çatdırıb.

# Cənab İlham Əliyev xalqımızın alternativsiz lideridir

*YAP Siyasi Şurasının üzvü, partiyanın Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızının yap.org.az-a müsahibəsi*

***- Məlahət xanım, artıq bir neçə gündür ki, seçki təbliğat-təşviqat marafonuna start verilib. Yeni Azərbaycan Partiyası 11 aprel prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini irəli sürüb. Ümumiyyətlə, ölkəmizdəki seçki mühiti, cəmiyyətimizin bu seçkilərə münasibəti ilə bağlı fikirlərinizi bilmək istərdik...***



- Ölkəmizdə keçirilən seçkilər hər zaman mühüm siyasi hadisə kimi cəmiyyətimizin diqqət mərkəzində olur və vətəndaşlarımız seçkilərdə fəal iştirak edirlər. İnanıram ki, 11 aprel prezident seçkiləri də bu qəbildən olacaq və vətəndaşlarımız bir daha seçki məntəqələrinə gedərək Azərbaycanın inkişafına, rifahına, sabitliyinə, bir sözlə, Yeni Azərbaycan Partiyasının Sədri, partiyamızın namizədi cənab İlham Əliyevə səs verəcəklər. Çünki cənab İlham Əliyevin uğurlu fəaliyyəti birmənalı olaraq xalqımız tərəfindən dəstəklənir. Bu mənada Ona ümümxalq namizədi desək yanılmarıq. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Azərbaycan olduqca mühüm nailiyyətlər əldə edib. İstər daxili, istərsə də xarici arenada strateji uğurlar qazanılıb. Vurğulamaq lazımdır ki, Prezident İlham Əliyev dövlət başçısı kimi Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu müasir dövrün çağırışlarına uyğun daha da inkişaf etdirərək uğurla həyata keçirir. Bu illər ərzində ölkəmiz həm iqtisadi, həm siyasi, həm də beynəlxalq sahələrdə böyük nailiyyətlər qazanıb. Möhtərəm Prezidentimizin zəngin diplomatiyada və dövlət idarəçiliyindəki zəngin təcrübəsi və biliyi, eləcə də şəxsi nüfuzu və xarizmasının nəticəsidir ki, ölkəmizə beynəlxalq ictimaiyyet tərərəfindən çox böyük hörmət var. Azərbaycanda aparılan davamlı və uzunmüddətli iqtisadi islahatlar nəticəsində ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri ilə bir sırada dayanır. Bunun nəticəsidir ki, dünyada ilk dəfədir ki, 25 il müstəqillik tarixi olan bir dövlətə 2011-ci ildə 155 dövlətin dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü seçildi. Həqiqətən də gənc ölkə üçün müstəsna əhəmiyyətli uğur idi.

Azərbaycan həm də kosmos ölkələri sırasındadır ki, bu uğura da hər bir dövlət nail ola bilməyib.

Əlbəttə ki, cənab Prezidentin həyata keçirdiyi siyasətin uğurlarını xalqımız görür və yüksək qiymətləndirir. Ona görə də, ümumxalq partiyası olan YAP özünün VI qurultayında cənab İlham Əliyevin prezidentliyə namizədliyini rəsmi şəkildə irəli sürməklə xalqın mövqeyini ifadə etdi. Əminəm ki, aprelin 11-də azad və demokratik prezident seçkiləri nəticəsində növbəti dəfə cənab İlham Əliyevin parlaq qələbəsini qeyd edəcəyik. Çünki cənab İlham Əliyev xalqımızın alternativsiz lideridir.

***- Bu günün rakursundan baxsaq, ötən 15 il ərzində Azərbaycanın iqtisadi-siyasi uğurlarını necə qiymətləndirmək olar? Bu uğurların təməlində hansı amillər durur?***

- İlk növbədə, əldə olunan nailiyyətlərin təməlində xalqın öz Prezidentinə, etibar etdiyi, etimad göstərdiyi hakimiyyətinə sevgisi, inamı dayanır. Bu gün Azərbaycanda yüksək vətəndaş həmrəyliyi formalaşıb və xalq-hakimiyyət vəhdəti mövcuddur. Möhtərəm Prezidentimiz hər dəfə görüşlərdə və müxtəlif tədbirlərdə bütün uğurların təməlində xalqla iqtidarın birliyi olduğunu deyərək, xalqa olan sevgisini ifadə edir. Bu birlik isə bütün problemlərin həllində əsas rol oynayır. Azərbaycan Prezidenti istər daxili siyasətində, istərsə də xarici siyasət kursunda bir əsas xətt-milli maraqlara, dövlətçilik mənafeyinə üstünlük verir ki, bu da dövlət olaraq əldə etdiyimiz nailiyytlərin əsas bazası sayılır. Prezident İlham Əliyev hər zaman vurğulayır ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Həyata keçirilən siyasi kurs, aparılan islahatlar, yeniliklər vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə, onların həyat şəraitinin daha da yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb. Ötən illərdə möhkəm daxili sabitliyi ilə fərqlənən Azərbaycanda ölkəyə gələn böyük həcmlərdə neft gəlirləri məqsədyönlü şəkildə milli mənafe baxımından strateji önəm daşıyan prioritet sahələrə, o cümlədən də neftdənkənar iqtisadiyyat üzrə yeni proqramların reallaşdırılmasına yönəldilib. Həyata keçirilən məqsədyönlü siyasət sayəsində respublikamızda buraxılan ümumi daxili məhsulda qeyri-neft sektorunun xüsusi çəkisi 80 faizədək artıb ki, bu da böyük nailiyyətdir.

Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı ciddi konseptual əsaslara söykənir və Prezident İlham Əliyevin fərmanları ilə təsdiqlənərək 2004-cü ildən bəri böyük uğurla reallaşdırılan müvafiq Dövlət proqramlarında nəzərdə tutulan konkret hədəflərə istiqamətləndirilib. İndiyədək respublikamızda Prezident İlham Əliyevin müvafiq fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırılıb. Əvvəlki illərdə yaradılan möhkəm baza və qazanılan təcrübə 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramının qəbul edilməsi üçün möhkəm əsas olub. Hazırda üçüncü Dövlət Proqramı da böyük müvəffəqiyyətlə yerinə yetirilir.

Qeyd etdiyimiz kimi, rasional iqtisadi inkişaf ölkə vətəndaşlarının mənafeyinə yönələn güclü sosial siyasətlə tamamlanır. Azərbaycanın dövlət başçısının nümayiş etdirdiyi güclü siyasi iradə sayəsində respublikamızda yoxsulluğun tamamilə aradan qaldırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Çox qısa müddətdə yoxsulluğun 50 faizdən 5 faizədək azaldılması böyük nailiyyətdir. Eyni zamanda, son 14 ildə respublika üzrə təxminən 1,9 milyondan artıq yeni iş yerinin yaradılması insanların sosial vəziyyətinin yaxşılaşmasında mühüm faktor qismində çıxış edir. Hazırda Azərbaycanda yoxsulluq qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağıdır. Ölkəmiz insan inkişafı indeksini MDB dövlətləri üzrə ən yüksək səviyyəyə çatdırıb, BMT-nin İnkişaf Proqramının hesabatında "yüksək insan inkişafı" ölkələri qrupunda yer alıb. Son 15 ildə ÜDM 3,2 dəfə artıb. ÜDM-in adambaşına düşən həcmi isə 7205 manat təşkil edir. Bu olduqca yüksək göstəricidir və buna məhz Prezident İlham Əliyevin uzaqgörən, qətiyyətli siyasəti nəticəsində nail olunub.

Bundan başqa, ölkəmizdə Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasi xəttə əsasən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə davamlı tədbirlər görülür. Bu baxımdan ölkə əhalisinin ən həssas hissəsi olan qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə göstərilən dövlət dəstəyi xüsusilə diqqətəlayiqdir.

Bəli, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, Azərbaycan xalqının və dövlətinin mənafeyinin ən yüksək səviyyədə qorunmasına yönəlmiş qlobal fəaliyyət hər bir azərbaycanlı tərəfindən yüksək qiymətləndirilir və cənab Prezidentin yorulmaz fəaliyyəti xalqımızın bütün təbəqələri tərəfindən dəstəklənir. Bu prosesdə sözsüz ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var.

***- YAP Nəsimi rayon təşkilatı təbliğat-təşviqat dövründə öz fəaliyyətini hansı istiqamətdə qurub?***

- Artıq təbliğat-təşviqat işlərinə uğurla start verilib. YAP Nəsimi rayon təşkilatı təbliğa-təşviqatla bağlı YAP Mərkəzi Seçki Qərargahının tapşırıq və tövsiyyələrinə uyğun olaraq tədbirlər planı hazırlayıb və hazırda bu tədbirlər planına uyğun olaraq müvafiq tədbirlər, görüşlər keçirilir. Bildiyiniz kimi, Nəsimi rayonu gənclər rayonudur. Hər zaman Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirən Azərbaycan Gəncliyi 2003-cü ildən öz liderini və BÖYÜK DOSTUNU və BÖYÜK DAYAĞINI seçmişdir. Bunun biz bir daha 2003, 2008 və 2013 seçkilərində şahidi olduq. Bundan başqa, YAP Nəsimi rayon təşkilatının gəncləri, fəalları demək olar ki, təşviqat dövründə hər gün seçicilərlə təmsasda olur, müəyyən fləşmoblar həyata keçirir. Bugünlərdə partiyamızın rayon təşkilatının 1500-ə yaxın fəali canlı olaraq İLHAMLA İRƏLİ flaşmobunu yazaraq öz LİDERLƏRİNƏ olan inam və dəstəklərini sübut etdilər. Artıq seçki dairələri üzrə müəyyən olunmuş lövhələrdə təbliğat materiallarımız yerləşdirilib. Növbəti günlərdə seçicilərlə açıq və qapalı yerlərdə görüşlər nəzərdə tutulur. Əslində, vurğuladığımız kimi cənab İlham Əliyevin seçki təbliğatının əsas təbliğatçısı məhz 15 ildə əldə olunan uğurlardır. Vətəndaşlarımız bu uğurları, bu inkişafı öz həyatlarında hiss edirlər və bu baxımdan da inanırıq ki, hər bir seçici bu inkişafın davamlı olmasını təmin etmək üçün 11 apreldə seçki məntəqələrinə gedəcək və möhtərəm Prezidentimiz İlham Əliyevə qarşıdakı 7 ildə yenidən ölkəmizə rəhbərlik etməsi üçün mandat verəcək.

## "Əli Həsənov strateji məsələləri dərindən bilən məmur kimi yeni vasitələrdən dövlət maraqlarımız üçün çox effektiv istifadə edir"



"Müasir texniki tərəqqi post-modernist cəmiyyətlərə ən müxtəlif ictimai kommunikasiya vasitələri təqdim edir. Hazırda internet resursları üzərindən çox fərqli metod və üsullarla ünsiyyət qurmaq istədiyinin kütləvi auditoriyaya asanlıqla çıxmaq mümkündür". SİA-nın verdiyi məlumata görə, bunu "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu özünün "facebook" səhifəsində paylaşıb.

Onun sözlərinə görə, yeni resurslarla informasiyanın idarə olunması və onun ictimai rəyə təsirinin səmərəli təşkili daha asandır: "Ona görə də bütün informasiya cəmiyyətlərində bu vasitədən məmnuniyyətlə istifadə edirlər. Əgər informasiyaya institusional forma verməklə onu hətta idarəetmə vasitəsinə çevirməyin mümkünlüyünü də nəzərə alsaq belə universal vasitədən istifadə etməyin nə qədər zəruri olduğunu görə bilərik. Azərbaycan da qlobal informasiya məkanının subyektlərindən biridir və ölkəmizdə internet istifadəçilər 80 faizdən çoxdur. Belə olduqda əlbəttə bu resursların imkanlarından ilk növbədə informasiya təhlükəsizliyimizə cavabdeh olan qrumlar istifadə etməlidirlər. Elə edirlər də. Çünki informasiya məkanımızın düzgün istiqamətə yönləndirilməsi milli maraqlarımız baxımından strateji əhəmiyyətli məsələdir. İnformasiyanı bir qrup manipulyatorun istismarına verməк qətiyyən olmaz. Çünki informasiya ictimai rəyi həmrəy edə biləcək gücə sahib olduğu kimi onu milli maraqların əleyhinə də formalaşdıracaq gücə sahibdir. Vəziyyət belə olduqda ölkəmizin informasiya təhlükəsizliyi kimi vacib məsələlərlə məşğul olan qrumlar və onlara rəhbərlik edən şəxslər də bütün növ vasitələrdən, o cümlədən "facebook", "twitter", "watsapp" kimi vasitələrdən istifadə etməlidirlər.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov da bu tipli strateji məsələləri dərindən bilən məmur kimi əlbəttə yeni vasitələrdən dövlət maraqlarımız üçün istifadə etməlidir və çox effektiv də istifadə edir. Ancaq görünür qlobal imperializmin bu silahından bir azərbaycanlı məmurun imperializmin nökərlərinə qarşı belə uğurla istifadə etməsi həmin nökərlərin və hətta onların ağalarının xoşuna gəlmir. Ona görə də öz məntiqsiz məntiqlərinə görə bunu müxtəlif formada yozmağa çalışırlar. Onlara elə gəlir ki, beləliklə ictimai rəyi manipulyasiya edərək onu doğru yoldan sapdıracaqlar. Ancaq xəbərləri yoxdur ki, kifayət qədər intellektual əsaslarda formalaşan Azərbaycan ictimai rəyi nəinki manipulyasiya ediləcək qədər sadəlövh tam əksinə onunla manipulyasiya etmək istəyənləri qınayacaq qədər kamildir".

## Oleq Ponomar:
## "Azərbaycandakı sabit ictimai-siyasi mühit seçkilərin şəffaf keçirilməsini şərtləndirir"

Azərbaycandakı seçki sistemi ölkənin demokratik siyasi sisteminə uyğundur. AZƏRTAC xəbər verir ki, bu fikri seckhi-2018.az saytına açıqlamasında ukraynalı siyasi şərhçi Oleq Ponomar deyib. O bildirib ki, bu gün Azərbaycanda sabit ictimai-siyasi mühit, demokratik cəmiyyət mövcuddur. Bu da seçkilərin ədalətli və şəffaf keçirilməsini şərtləndirir.



"Biz 11 aprel prezident seçkilərində Azərbaycan xalqının doğru seçim edəcəyinə inanırıq və onun seçiminə hörmətlə yanaşacağıq", - deyə siyasi şərhçi vurğulayıb. Azərbaycanın Ukrayna üçün vacib tərəfdaş olduğunu qeyd edən O.Ponomar əlavə edib ki, ölkəsi Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsində rəsmi Bakını dəstəkləyir.






# Xalq İlham Əliyevə "HƏ" deyir!



## Nəsimi seçiciləri güclü və qüdrətli Azərbaycan naminə Cənab İlham Əliyevə səs verəcəklər





Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində yol-nəqliyyat sahəsində çalışan seçicilərlə "İLHAMLA İRƏLİ" şüarı altında tədbir keçirib. Tədbirdə 300-dən çox seçici iştirak edib.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsinin sədri Məlahət İbrahimqızı ölkəmizdə Cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modelinin yarandığını bildirib. Qeyd edib ki, bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb.

M.İbrahimqızı bildirib ki, Azərbaycan son 15 ildə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. O, daxili və xarici uğurlu siyasətin davamlı olması üçün bütün seçiciləri Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsinin seçki qərargahının üzvləri Zərifə Quliyeva, Yaşar Əhmədov, Cabbar Mahmudov çıxış edərək, regionun lider dövləti olan Azərbaycanı dünyanın sürətlə inkişaf edən ölkəsinə çevirmiş Möhtərəm Prezident Cənab İlham Əliyevin 2003-cü ildən bu günə qədər fəaliyyəti haqqında ətraflı danışıblar.

Görüşdə çıxış edən yol-nəqliyyat işçiləri ötən dövrdə böyük dəstək və etimadla xalqın böyük rəğbət və inamını qazanmış Möhtərəm Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə yol-nəqliyyat infrastrukturu sahəsində misilsiz işlərindən danışıblar. Onlar ümumxalq namizədi Cənab İlham Əliyevin prezidentliyə namizədliyinin qarşıdakı geniş ictimaiyyət tərəfindən 7 il üçün daha güclü və qüdrətli Azərbaycan naminə dəstəkləndiklərini bildiriblər. Görüşün sonunda iştirakçılar yekdilliklə respublikanın bütün yol-nəqliyyat işçilərinə bir daha İLHAMLA İRƏLİ səslənərək, 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevin namizədliyinin dəstəklədikləri və Ona səs verəcəklərini bildirdilər.

## Saraylıların seçimi İlham Heydər oğlu Əliyevdir!

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Abşeron rayon şöbəsi aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində






Saray qəsəbəsində seçicilərlə görüş keçirib. SİA-nın verdiyi məlumata görə, görüşdə rayon təşkilatının rəhbərliyi, "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev və partiya fəalları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Abşeron rayon şöbəsinin sədri Bilman Vəliyev görüş iştirakçılarını salamlayaraq qeyd edib ki, artıq prezident seçkilərinə sayılacaq günlər qalıb və bu gün Azərbaycan xalqının böyük əksəriyyəti öz seçimini edib - bu seçim Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevdir. "Müstəqil Azərbaycanın inkişafı 15 ildə davamlı olaraq öz müsbət nəticələrini xalqın rifahında təcəssüm etdirir. Bu baxımdan, Vətənini, dövlətini sevən hər bir azərbaycanlı yekdilliklə Cənab İlham Əliyevə səs verəcək"-deyə vurğulayan Bilman Vəliyev, aprelin 11-də hər kəsi seçki günündə fəal olmağa və seçki məntəqələrinə gedərək, alternativsiz namizəd Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Ardı Səh. 6




səs ®
www.sesqazeti.az
facebook Ses Media Holding
24 mart 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 5

Çıxış edən YAP Abşeron rayon qadınlar şurasının sədri Təyyubə Hüseynova 15 il ərzində, Azərbaycanda mövcud olan inkişaf və tərəqqi, əldə edilmiş nailiyyətlərin hər birinin əsasında Ulu Öndər Heydər Əliyev siyasəti və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi faktorunun dayandığını deyib. T.Hüseynova bu uğurların davamlı olması, daha böyük nailiyyətlərin əldə edilməsi, xalqımızın daha firavan yaşaması üçün hər kəsi Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Gənc seçici İsmayılzadə Təranə isə, çıxışında bildirib ki, məhz Azərbaycan gəncinə göstərilən diqqət və qayğı, bütövlükdə ölkə gəncliyinin səsinin beynəlxalq aləmdə yüksəlməsinə, gənclərin elmi-texniki və s. əhəmiyyətli potensiallarının artmasına, intellekt səviyyələrinin inkişafının səbəb olub. "Bu baxımdan, biz gənclər də ölkəmizin daha güclü və xoşbəxt gələcəyi naminə Cənab İlham Əliyevə səs verərək, Onun siyasətini dəstəkləyəcəyik"- deyə qeyd edən T. İsmayılzadə Azərbaycan gəncliyinin namizədinin İlham Heydər oğlu Əliyev olduğunu bildirib.

Saray qəsəbəsinin ağsaqqalı Tahirov Ağası isə bildirib ki, bu gün ölkəmizdə olan sabitlik və inkişafın davamlı olması üçün yaşlı nəslin nümayəndələri də bir namizədi - Cənab İlham Əliyevi dəstəkləyir və aprelin 11-də, birmənalı olaraq, Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklər.

YAP Abşeron rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvü Abdulov Məhərrəm çıxışında bildirib ki, bu gün ölkə seçicilərinin mütləq əksəriyyəti, bilavasitə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyev siyasətini dəstəkləyir. "Ötən 15 ildə hər kəs əldə edilən müvəffəqiyyətləri görür və şahidi olur. Bu baxımdan, hər kəs nailiyyətlərin davamlı olması üçün seçki günü məntəqələrə gedərək, Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcək".

Tədbirdə çıxış edən "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev seçkilər gününün elə də uzaqda olmadığını deyərək, ilk növbədə, ölkəmizdə demokratik seçki mühitinin mövcudluğunu vurğulayıb və bildirib ki, bütövlükdə Azərbaycanın inkişaf təməli, bilavasitə yüksəlişlər və uğurlar nəticəsində qazanılıb. "Bu baxımdan, deyə bilərik ki, məhz Azərbaycandakı sabitlik fonunda nəhəng regional və beynəlxalq layihələr həyata keçirilib, müxtəlif sahələrin tərəqqisi müşahidə olunub"-deyə vurğulayan Bəhruz Quliyev əlavə edib ki, belə bir inkişaf tandeminin davamlı olması naminə hər kəs Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin ətrafında sıx birləşməli, aprelin 11-də Ona səs verməlidir: "Daha xoşbəxt gələcək naminə hər birinizi "İlhamla irəli" şüarı altında Cənab İlham Əliyevə səs verməyə çağırıram".

## Ağdaşlılar "İlhamla İrəli" deyirlər





11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Ağdaşda da uğurla davam edir. Növbəti görüş dünən rayonun Qulbəndə, Şordəhnə, Qəsil və Qarağan Şıxlar kəndlərinin sakinləri ilə keçirilib.

Görüşləri YAP Ağdaş rayon təşkilatının sədri, millət vəkili Cavid Osmanov açaraq, prezident seçkilərinin hər bir dövlətin həyatında mühüm siyasi hadisə olduğu bildirərək, Azərbaycanda da bu gün mühüm bir proses yaşanıldığını vurğulayıb. O, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin son 15 ildə məqsədyönlü siyasəti nəticəsində böyük uğurların əldə edildiyini qeyd edib. C.Osmanov 11 apreldə seçiciləri seçki məntəqələrinə gəlməyə və Azərbaycanın uğurlu gələcəyi naminə Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Daha sonra çıxış edən Adil Məmmədov, Fəxrəddin Həsənov, Sahib Əhmədov və Məhəmməd Əzizov qeyd ediblər ki, Azərbaycanın əldə etdiyi böyük nailiyyətlər Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyev siyasi kursunun uğurla davam etdirməsinin məntiqi nəticəsidir. Çıxış edənlər bu uğurların davamlılığı üçün ağdaşlıları Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşdə çıxış edən təbliğat qrupunun üzvləri İsa Eminov və Səadət İbrahimova ölkə Prezidenti Cənab İlham Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü işlərdən danışaraq, seçiciləri gələcəkdə uğurların və sabitliyin davamlı olması üçün Cənab İlham Əliyevə səs verməyə çağırdı.

***

Ağdaş rayonunda Yeni Azərbaycan Partiyasının prezi-



dentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində tədbirlər uğurla davam edir. Ağdaş rayonunun Kükəl, Ərəb, Birinci Aral, Xosrov, Şəmsabad və Tofiqi nümayəndəliklərini əhatə edən kəndlərin seçiciləri ilə görüşlər keçirilib.

Görüşləri Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin sədri, millət vəkili Cavid Osmanov açaraq, bildirib ki, son 15 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində müstəqil Azərbaycan sosial-iqtisadi və mədəni-mənəvi baxımdan sürətlə inkişaf etmiş, beynəlxalq aləmdə ölkəmizin strateji mövqeləri kifayət qədər möhkəmlənmişdir: "Həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, ölkəmizin beynəlxalq miqyaslı tədbirlərə uğurla ev sahibliyi etməsi, regionların sosial-iqtisadi inkişaf proqramlarının reallaşması, demokratik idarəçilik mexanizmlərinin tətbiqi, vətəndaş cəmiyyətinin qurulması, hüquqi təsisatların bərqərar edilməsi və ən müxtəlif sahələr üzrə etibarlı beynəlxalq tərəfdaş imicinin qazanılması inkişaf edən müasir Azərbaycanın reallıqlarına çevrilmişdir. Məhz belə möhtəşəm uğurlara görə, ağdaşlılar 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevi dəstəkləyəcəklər."

Görüş iştirakçılarından Tahir Tağıyev, Dəyanət Xəlilov, Roza Əhmədova, Gülşən Cəlilova, Elxan İsayev, Tofiq Siracov, Vaqif Həsrətov və Səbinə Mehdiyeva çıxışlarında Cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsini sevinc hissləri ilə qarşıladıqlarını bildiriblər. Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sadiq insanlar olduqlarını bildirən görüş iştirakçıları Yeni Azərbaycan Partiyasının namizədindən başqa seçimləri olmadığını vurğulayıblar. Bütün seçicilər adından bəyan edib ki, onların seçimi bu dəfə də Cənab İlham Əliyevdir və bu seçimi təsdiq etmək üçün 11 aprel tarixini səbirsizliklə gözləyirlər.

Görüşdə çıxış edən təbliğat qrupunun üzvləri Tənzilə Şıxıyeva və Elsevər Baxışov qeyd ediblər ki, ağdaşlılar vətənsevər, dövlətə, Ulu Öndər Heydər Əliyevin amallarına sadiq insanlardır və bundan sonra da belə olacaqlar.

## Ağdamlılar Yeni Azərbaycan Partiyasını namizədini dəstəkləyəcəklər

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Ağdam rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla






davam etdirilir. Dünən Ağdam rayonu Quzanlı qəsəbə Mədəniyyət Evində təhsil işçiləri, daha sonra isə səhiyyə işçiləri ilə görüş keçirilib.

Seçicilər qarşısında çıxış edən YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində, Azərbaycanın dünyanın stabil dövlətlərindən birinə çevrildiyini bildirib. Bu





stabillik nəticəsində, ictimai həyatın bütün sahələrində tərəqqi əldə olunub. Son illərdə Azərbaycan iqtisadiyyatı dünyanın ən yüksək templəri ilə inkişaf etmiş, bu inkişafın təməlində uğurlu iqtisadi və siyasi islahatlar, Azərbaycanda aparılan uğurlu neft siyasəti dayanır. Bu, Prezidentimizin böyüklüyü, müdrikliyi, iradəsi və Liderliydir. Rayon təşkilat sədri hər bir seçicini ölkəmizin gələcək inkişafına - Cənab İlham Əliyevə səs verəməyə çağırıb.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Ağdam rayon şöbəsinin təbliğat qrupunun sədri Hüseyn Bayramov, Milli Məclisin deputatları, YAP Mərkəzi Qərargahının təbliğat qrupunun üzvüləri Bəxtiyar Sadıqov və Bəxtiyar Əliyev çıxış edərək, Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən layihələrdən, islahatlardan danışaraq, qarşıdakı 7 il üçün daha güclü və qüdrətli Azərbaycan naminə seçiciləri Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi üçün çağırış etdilər.

* * *

11 aprel prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdam rayonu Quzanlı qəsəbəsində Ağdam Olimpiya İdman Kompleksinin stadionunda geniş ümumrayon tədbiri keçirilib.

Ardı Səh. 7

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli Səh. 6

Tədbirdə Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, YAP Mərkəzi Aparatının məsul işçisi Araz Xudadanov və ümumilikdə, 5000 nəfər iştirak edib.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağdam rayon şöbəsinin sədri Allahverən Əliyev, birmənalı tərzdə, ağdamlıların Cənab İlham Əliyevin prezidentliyə namizədliyini ürəkdən dəstəklədiklərini və müdafiə etdiklərini bildirib. Seçiciləri 11 aprel tarixində seçki məntəqələrinə gəlməyə, Ümummilli Liderimiz Heydər Əliyev ideyalarının layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb.

Daha sonra rayon təbliğat qrupunun sədri Hüseyn Bayramov, Milli Məclisin deputatları Bəxtiyar Sadıqov və Bəxtiyar Əliyev çıxış ediblər. Bildirilib ki, xalqımız Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasəti dəstəkləyir. Dövlət başçısının dövlətçiliyin müdafiəsi və inkişafı naminə atdığı hər bir addım vətəndaşlar tərəfindən rəğbətlə qarşılanır. Prezidentimiz İlham Əliyevin Azərbaycanın dövlətçilik maraqlarının beynəlxalq səviyyədə təmin edilməsinə yönələn uğurlu siyasəti Ona beynəlxalq aləmdə də böyük nüfuz gətirir. Bu gün dinamik inkişaf edən ölkəmizin gücü və qüdrəti Cənab İlham Əliyev tərəfindən daha da möhkəmləndirilir. Azərbaycan dünyanın stabil dövlətlərindən birinə çevrilir. Çıxış edənlər səsvermə hüququna malik olan seçiciləri fəal olmağa və dövlətimizin daha da qüdrətlənməsi naminə, Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Suraxanılılar işıqlı sabaha və uğurlu gələcəyə səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatında aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirilib. Görüşdə rayon şöbəsinin təbliğat video-çarxı nümayiş etdirilib.





Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsinin sədri Vüqar Seyidov 2003-2018-ci illərdə Azərbaycanın Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında möhtəşəm tarixi nailiyyətlər qazandığını vurğulayıb. Qeyd edib ki, dünyada qlobal maliyyə böhranının getdikcə dərinləşməsi ilə müşayiət olunan bir zamanda ölkəmizdə həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, bütün sahələrdə uğurlar və yeniliklər əldə edilmişdir. Bu gün Azərbaycanı bütün dünyada demokratik, qüdrətli və öz sözünü deməyə qadir olan ölkə kimi tanıyırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, möhkəm iradəsi, ölkəmizdəki ictimai-siyasi sabitlik sayəsində Azərbaycan hər sahədə inkişaf edir. V.Seyidov seçiciləri Azərbaycanın daha da çiçəklənməsi və uğurlu gələcəyi üçün YAP-ın namizədi Cənab İlhamə səs verməyə çağırıb.

Tədbirdə millət vəkilləri Sevinc Fətəliyeva, Ağacan Abıyev, Suraxanı rayon Ağsaqqallar Şurasının sədri Arif Babayev, hüquqşunas Loğman Abdullayev, şəhid anası Saray Quliyeva çıxış edərək, Cənab İlham Əliyevin rəhbərliyi ilə davamlı və dinamik inkişafı, spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində böyük nailiyyətlər əldə edildiyini bildiriblər. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Çıxış edənlər seçiciləri partiyanın namizədi Cənab İlham Əliyvə səs verməyə çağırıblar.

## Binəqədililərin seçimi Cənab İlham Əliyevdir

Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirilib.






Görüşü giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri, Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov Prezident Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 14 il ərzində əldə olunan uğurlardan və inkişafdan ətraflı danışıb. Dövlət başçısının Ümummilli Lider Heydər Əliyev siyasətini uğurla, müasir tələblərə uyğun və yeni çalarlarla davam etdirdiyini bildirib. R.Göyüşov Cənab İlham Əliyevin rəhbərliyi ilə Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin layihəsinin reallaşdırıldığını diqqətə çatdırıb. Ölkə prezidenti Cənab İlham Əliyevin uzaqgörən və milli maraqlara hesablanan siyasəti nəticəsində, Ermənistanın bütün beynəlxalq və regional layihələrdən kənarda qaldığını vurğulayıb. Sədr, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərini bildirərək, bununla bağlı dövlət başçısı Cənab İlham Əliyevin qətiyyətli mövqe nümayiş etdirdiyini bildirib. R.Göyüşov bütün seçiciləri qarşıdan gələn prezident seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin deputatı Kamaləddin Qafarov isə çıxışında qeyd edib ki, ölkəmizdə müxtəlif sahələr üzrə əldə olunan nailiyyətlər, xalq-iqtidar birliyi, onu deməyə əsas verir ki, Cənab İlham Əliyev alternativsiz liderdir. Cənab Prezidentin siyasi nüfuzu, yüksək qətiyyəti, ardıcıl və məqsədyönlü siyasi strategiyası ilə rəqabət aparmaq qeyri-mümkündür. K.Qafarov bütün seçiciləri bu ilin 11 aprel tarixində keçiriləcək Prezident seçkilərində iştirak etməyə, Cənab İlham Əliyevi dəstəkləməyə və Ona səs verməyə çağırıb.

YAP Binəqədi rayon təşkilatının sədr müavini Tünzalə Zeynalova çıxışında ölkəmizdə həyata keçirilən uğurlu təhsilə və səhiyyə islahatlarından danışıb. Cənab İlham Əliyevin “Bir ölkənin inkişafı onun təhsil göstərdiyi diqqətindən asılıdır” tezisli çıxışlarına toxunaraq, təhsilin bir dövlətin və xalqın inkişafındakı misilsiz əhəmiyyətindən söz açıb. Bildirib ki, Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsilin inkişafı istiqamətində reallaşdırılan uğurlu layihələrin sayı və miqyası günbəgün daha da artır.

Gənc seçicilərdən Famil Qurbanov və Elvin Əjdərli çıxış edərək ölkəmizdə gənclərə yaradılan yüksək şəraitdən, diqqət və qayğıdan bəhs etdilər, Cənab İlham Əliyevi dəstəklədiklərini bilirdilər. Bütün gəncləri və seçiciləri dövlət başçısının ətrafında sıx birləşərək, Ona səs verməyə dəvət ediblər.

## İsmayıllı seçiciləri Cənab İlham Əliyev siyasətini dəstəkləyirlər

Dünən YAP İsmayıllı rayon təşkilatı prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təşviqat-təbliğat kampaniyası çərçivəsində Bizlan və Keyvəndi kəndlərində seçicilərlə görüş keçirib.






Tədbirləri giriş sözü ilə YAP İsmayıllı rayon təşkilatının idarə heyətinin üzvü Valeh Salehov açaraq, qeyd edib ki, Prezident İlham Əliyevin 2003-cü ildə xalqımızın böyük əksəriyyətinin səsi ilə Prezident seçilməsindən sonra Azərbaycan inkişafın yeni mərhələsinə qədəm qoydu. Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan uğurlu islahatlar dövlətimizin başçısı İlham Əliyev tərəfindən daha dinamik və çoxşaxəli tərzdə davam etdirildi. Məhz ötən 15 ilin ictimai-siyasi, həmçinin sosial-iqtisadi mənzərəsinə, statistik göstəricilərinə nəzər yetirdikdə, bir daha bu reallığın şahidi oluruq.

YAP İsmayıllı rayon təşkilatının aparat rəhbəri Anar Nəbiyev çıxışında qeyd edib ki, ölkə Prezidenti İlham Əliyev verdiyi bütün vədləri yerinə yetirib, gördüyü işlərlə, imza atdığı qlobal layihələrlə dünya miqyasında nüfuzlu Lider, ölkə daxilində qətiyyətli, uzaqgörən rəhbər olduğunu təsdiq edib. A.Nəbiyev seçiciləri prezident seçkilərində fəal olmağa, işıqlı gələcəyimizə, iqtisadi inkişafımıza, siyasi sabitliyimizin qarantı olan Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Daha sonra çıxış edən kənd sakinləri T.Hacətov, N.Məmmədova, O.Quluyev, Ş.Cəbiyev, T.Həsənova və digərləri Azərbaycanın son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə qazandığı böyük uğurlar barədə geniş məlumat verərək, bütün seçicilərin aprelin 11-də fəal və mütəşəkkil şəkildə seçki məntəqələrinə gedərək, Ulu Öndər Heydər Əliyev siyasətinə, bu siyasətin layiqli davamçısı Cənab İlham Əliyevə səs verəcəyinə əminliklərini ifadə ediblər.

Ardı səh. 8

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli Səh. 7

## Qusarlılar qələbələrə aparan işıqlı gələcəyimizə səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi 11 aprel tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevin təbliğat kampaniyasını uğurla davam etdirərək, rayonun Samur qəsəbəsi, Avaran və Qalacıq kənd seçiciləri ilə görüşlər keçirmişdir.





Görüşlərdə Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsinin sədri David İbramxəlilov çıxış edərək 2003-2018-ci illər ərzində ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə tarixi nailiyyətlərin əldə edildiyini bildirib. Qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, müstəqil Azərbaycan inkişafda olan ölkələr arasında öz yerini möhkəmlətmişdir. Son illərdə ölkəmizdə gedən abadlıq-quruculuq işlərindən, xalqın sosial rifahına yönəldilmiş layihələrdən, beynəlxalq səviyyədə ölkəmizin artan nüfuzundan və iqtisadi yüksəlişindən danışıb. O, gələcəyimizin daha yeni qələbələrə və uğurlara imza atmaları üçün YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşlərdə rayon təşkilatının idarə heyətinin üzvü Zahir Mustafayev, Avaran kənd seçiciləri adından Əmrah Əmrahov, Narulla Davıdov və Qalacıq kənd seçiciləri adından Gülnaz Hacımuradova çıxış edərək, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin fəaliyyəti nəticəsində ölkəmizin hərtərəfli inkişaf etdiyini, Azərbaycanın dünyada sabitlik adasına çevrildiyini diqqətə çatdırıblar. Seçiciləri seçki günündə, bir nəfər kimi, seçki məntəqələrinə gələrək, İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıblar.

Görüşlərdə iştirak edən seçicilər, Azərbaycanın bugünkü reallıqlarını nəzərə alaraq, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Seçicilər Cənab İlham Əliyevin alternativsiz namizəd olduğunu bildirdilər

Yeni Azərbaycan Partiyasının Şamaxı rayon təşkilatının təbliğat qrupunun üzvləri, qrafikə uyğun olaraq, dünən II Çaylı, Həmyəli, II Cabanı və Qonaqkənd kəndlərində seçicilərilə görüş keçirib. Tədbiri giriş sözü ilə açan qərargah üzvü Eyvaz Eminaliyev partiyanın, eləcə də, Cənab Prezi-





dent İlham Əliyevin uğurlu fəaliyyətindən, nailiyyətlərindən danışıb. Seçicilərin, bu nailiyyətlərin fonunda yalnız Cənab İlham Əliyevə səs verəcəyini əminliklə nəzərə çatdırıb.

Sonra təbliğat qrupunun üzvləri Ağarza Bayramov, Tünzalə Yusifova, Nəzakət Abdulrazaqova, Fatma Quliyeva, Səməd Fətəliyev, Namik Rzazadə, Şahmar Hüseynov, Hacıbaba Şıxıyev və Güllü Babaşova seçicilərin suallarına cavab verib və cıxış edərək Azərbaycan xalqının tərəqqisi, ölkəmizin daha da çiçəklənməsi, inkişafı, daha böyük nailiyyətlərin əldə edilməsi üçün Cənab İlham Əliyevə səs verilməsinin vacibliyini vurğulayıb. Görüşdə iştirak edənlər stabillik və inkişaf naminə Cənab İlham Əliyevə səs verəcəklərini və Onun alternativsiz namizəd olduğunu bildirdilər.

Keçirilən görüşlər, ümumilikdə 32, 33, 34, 35 saylı məntəqələrdə qeydiyyatda olan 500 yuxarı seçicini əhatə edir. Cənab Prezidenti dəstəkləyən seçicilərin görüşləri, hər zaman olduğu kimi, bu dəfə də yüksək əhval-ruhiyyə ilə keçirilib.

## Qax seçicilərinin seçimi Cənab İlham Əliyevdir

11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin Qax rayonu üzrə seçki qərargahı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş dünən rayonun Almalı, Dəymədağlı və Şıxlar kəndlərinin seçiciləri ilə keçirilmişdir. Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Qax rayon şöbəsinin sədri Nizami Əhmədov qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının namizədi, Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan kompleks tədbirlər nəticəsində, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir, ölkəmizin beynəlxalq aləmdə nüfuzu gündən-günə yüksəlir, iqtisadiyyatımızda dinamik inkişaf təmin edilir. Biz əminik ki, hər bir azərbaycanlı növbəti illərdə də bu inkişafın davamını Cənab İlham Əliyevlə birgə görmək istəyir.

Milli Məclisin deputatı Rafael Hüseynov seçicilər qarşısında çıxış edərək, bildirdi ki, Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan dövləti daha da inkişaf edərək qüdrətli, əzəmətli və regionda söz sahibi olan dövlətə çevrilmişdir: “Ölkədə gedən geniş abadlıq-quruculuq işləri,





müasir infrastruktur layihələri Azərbaycanımızın simasını tamamilə dəyişdirmişdir. Dünyanın ən qabaqcıl dövlətləri belə Azərbaycanda gedən iqtisadi sıçrayışa həsədlə baxırlar. Əlbəttə, bütün bunlara Cənab Prezidentimizin Ulu Öndər Heydər Əliyev kursuna sədaqəti, gərgin əməyi, xalqına bağlılığı ilə nail olunmuşdur. Bu inkişafı müdrik Azərbaycan xalqı və eləcə də, Qax seçiciləri heç vaxt unutmayacaq və öz rəğbətini 11 apreldə seçki məntəqələrinə gələrək bildirəcəklər”.

Seçicilərdən Şürəddin Həsənov, Narıngül Fətəliyeva, Nemət Əliyev çıxış edərək qeyd etdilər ki, bu gün bizə yaradılan şəraitə görə, həyat səviyyəmizin yaxşılaşdırılması istiqamətində atılan addımlara görə Cənab Prezidentimizə minnətdarıq və həmişə də Prezidentimizin arxasındayıq, seçimimiz Cənab İlham Əliyevdir.

## Qəbələ seçiciləri cənab İlham Əliyevə səs verəcəklər





# Xalq İlham Əliyevə "HƏ" deyir!

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsi 11 aprel 2018- ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Mirzəbəyli kəndində partiyanın namizədi Cənab İlham Əliyevə seçkilərdə dəstək məqsədi ilə seçicilərlə görüş keçirib. Görüşdə Mirzəbəyli kəndinə yaxın olan İmamlı və Corlu kəndinin sakinləri də iştirak edib.

YAP Qəbələ rayon təşkilatının sədr müavini, təbliğatçi Elçin Tağıyevin və təbliğat qrupunun üzvü Qüdrət Səmədovun iştirak etdiyi tədbiri sədr müavini açaraq, Yeni Azərbaycan Partiyasının namizədi ölkə başçısı İlham Əliyevin apardığı daxili və xarici siyasətdən, ardıcıl və sistemli islahatlardan, ölkəmizin istər regionda, istərsə də dünyada qazandığı uğurlardan danışıb.

Müstəqil Azərbaycanın inkişafında müstəsna xidmətləri olan Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yolundan bəhs edən E.Tağıyev çıxışının sonunda bütün bu uğurların gələcəkdə davamlı olması üçün hər kəsi seçki günü İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb.

Təbliğat qrupunun üzvü Qüdrət Səmədov çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənablarının rəhbərliyi ilə 2003-2018-ci illərdə ölkəmizin qazandığı möhtəşəm tarixi naliyyətlər haqqında ətraflı məlumat verərək, seçicilərin partiyanın namizədi və Cənab İlham Əliyevə səs verəcəyinə əminliyini bildirib.

Seçicilər adından Tofiq Hacıyev, İkram Yusifov, Tehran Qaçayev, Samit Ağayev, İsmayıl Əlimirzəyev və İbrahim Abdullayev çıxış edərək, Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bildiriblər.

## Sabunçu qadınları ölkəmizin möhtəşəm qələbələrə aparan Cənab İlham Əliyevə səs verəcəklər






Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsi 11 aprel tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun qadın seçiciləri ilə görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin uğurla həyata keçirildiyini bildirib. Qeyd edib ki, respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir və əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi üçün təsirli tədbirlər görülür: "Bu gün Azərbaycan, yerləşdiyi bölgədə əsas inkişaf məkanı olmaqla, nəhəng infrastruktur layihələrini icra edir, heç bir regional layihə Azərbaycanın iştirakı olmadan reallaşmır və ölkəmiz Avropanın enerji təhlükəsizliyində son dərəcə vacib faktora çevrilib. Beləliklə, Azərbaycanda bütün istiqamətlərdə böyük inkişaf müşahidə olunur. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması və tarixi irsə bağlılıq kimi müqəddəs prinsip dayanır".

Rayon təşkilatı sədri bu uğur və nailiyyətləri nəzərə alaraq, ölkəmizin möhtəşəm qələbələrə aparan Yeni Azərbaycan Patriyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə çıxış edən millət vəkili Dilarə Cəbrayılova, Sabunçu rayon gənclər və idman idarəsinin rəisi Rakif Əliyev, müharibə və əmək əlilləri üçün pansionatın müdiri Qətibə Əsədova çıxış edərək, Azərbaycanın sosial-iqtisadi və siyasi-mədəni sahələrdə əldə etdiyi yüksək göstəriciləri böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsi olduğunu vurğuladılar. Qeyd olundu ki, hər sahədə qazandığımız uğurların təməlində Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti dayanır: "Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir. Bu gün Azərbaycan bütün dünyada demokratik, qüdrətli və öz sözünü deməyə qadir olan ölkə kimi tanınır".

Çıxış edənlər 11 apreldə keçiriləcək prezident seçkilərində Sabunçu qadın seçicilərini fəal olmağa və partiyamızın layiqli namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

## Balakənlilərin seçimi dəyişməzdir - İlhamla irəli

Dünən Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin təbliğat qrupu rayonun Qaysa kəndində seçicilərlə görüş keçirib. Görüş istirakçılarını salamlayan təbliğat qrupu Qaysa kənd seçicilərini 11 aprel prezident seçkilərində fəal olmağa və seçki məntəqələrinə gələrək, YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdılar. Görüşdə təqaüdçü müəllimi Qaysa kənd qadınlarının ağbirçəyi Meysarat Amalova çıxış edərək Prezident İlham Əliyevin fəaliyətindən, Onun Azərbaycanın gələcəyi naminə həyata keçirdiyi tədbirlərdən seçicilərə məlumat verdi. Qabaqcıl müəllimə Mahirə Oynağanova Prezidentin həyata keçirdiyi təhsil siyasətindən, gələcəyimiz olan uşaqlara diqqət və qayğısından, geniş söhbət açdı. Kənd ziyalısı Rafail Oynağanov çıxış edərək, 11 aprel tarixində seçki məntəqəsinə gedərək, ailə üzvüləri ilə Cənab İlham Əliyevə səs verəcəklərini bildirdi.

Günün ikinci yarısında Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin təbliğat qrupu Meşəsambul kəndində seçicilərlə görüş keçirdi. Meşəsambul kənd ziyalısı Hacı Osbanov, rayon seçki qərargahının təbliğatçılar qrupunun üzvü Nail Kalayev seçicilər qarşısında çıxış edərək "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" kəlməsini seçicilərə izah edərək, 11 apreldə seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırdılar. Rayon seçki qərargahının üzvü Ömər Osmanov çıxışında





Prezident İlham Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü işlərdən, həyata keçirdiyi qlobal layihələrdən söz açaraq, seçiciləri fəal olmağa və Cənab İlham Əliyev səs verməyə çağırdı.

## Xaçmazlıların seçimi Cənab İlham Əliyevdir

Dünən prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı Yeni Həyat, Pirquluoba kənd seçiciləri ilə görüş keçirmişdir. Görüşü YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin 2003-2018- ci illər ərzində Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən, sürətli iqtisadi inkişafa nail olmasından və digər məsələlər haqqında seçicilərə geniş məlumat vermişdir.

Tədbirdə Milli Məclisin deputatı Eldəniz Səlimov kənd sakinlərindən Sima Əliyeva, Rasim Muradov, Lətifə Ağaliyeva və başqaları çıxış edərək, Möhtərəm Prezident ətrafında, daha sıx birləşəcəklərini qeyd etməklə, seçki günü hər biri ailəsilə birgə Ona səs verəcəklərini bildirdilər: "Cənab İlham Əliyevə səs verməklə ölkəmizin gələcək inkişafına səs vermiş olacaq, sabitliyin və stabilliyin dayanıqlı olmasına səs verəcək və gələcək xoş günlərimizə səs verəcəyik".

Çıxış edənlər bir daha qeyd etdilər ki, xaçmazlılar həmişə dövlətə, dövlətçiliyə və Prezidentimizə öz sədaqətlərini göstərmişlər. Onun ətrafında sıx birləşdiklərini bildirməklə seçki günü hamı bir nəfər kimi məntəqələrə gələcək və xalqımızın layiqli oğluna Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

## Oğuzlular alternativsiz lider İlham Əliyevə səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsi aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Xalxal, Ərmənət və Xalxalqışlaq kəndlərində seçicilərlə görüş keçirib.

Ardı Səh. 10

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 9

YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin sədri Saleh Məhərrəmov görüşdə çıxış edərək bildirib ki, oğuzlular Yeni Azərbaycan Partiyasının namizədinə - Cənab İlham Əliyevə səs verəcəklər: "Ona görə ki, xalqımızın fəxri, böyük və qətiyyətli dövlət başçısı Cənab İlham Əliyev ölkə vətəndaşlarının ümid və qürür mənbəyidir. Bütün bunlara rəğmən, YAP-ın namizədi Cənab İlham Əliyev oğuzluların alternativsiz namizədidir".





Görüşdə seçicilər qarşısında çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin üzvləri Emin Əzimli, Mehman Ramazanov, Rövşən Ağababayev YAP-ın namizədi Cənab İlham Əliyevin siyasi fəaliyyətindən, Onun Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi naminə misilsiz xidmətlərindən, həmçinin, ölkədə aparılan aparılan quruculuq-abadlıq işlərindən danışıb. Çıxış edənlər seçiciləri xalqımızı uğurlu sabahlara aparan İlham Əliyev siyasətinə səs verməyə çağırdılar.

Tədbirdə çıxış edən seçicilər Nəriman Ramazanov və Eyvaz Hüseynov kənd sakinləri adından bildiriblər ki, Azərbaycanı işıqlı gələcəyə doğru aparan Möhtərəm Prezidentimizin gördüyü işlər həyata keçirdiyi uğurlu inkişaf proqramı danılmazdır. Ona görə də, hamılıqla 11 apreldə Yeni Azərbaycan Partiyasının vahid namizədinə səs verəcəklərini vurğulayıblar.

## Ağcabədililər ölkəmizin inkişafı naminə İlham Əliyevi dəstəkləyəcəklər

Yeni Azərbaycan Partiyası Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin təbliğat qrupunun Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşü davam edir. Dünən Ağcabədi rayonunun Aşağı Avşar kəndində təşviqat qrupunun üzvləri ilə seçicilərin növbəti görüşü keçirilib.

Görüşü Yeni Azərbaycan Partiyası Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin sədr müavini Nazim Bünyatov açaraq, 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkiləri barədə məlumat verib. N.Bünyatov prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramı ilə seçiciləri tanış edib. Qeyd edib ki, 2003-2018-ci illərdə İlham Əliyevin ölkə Prezidenti kimi gördüyü işlər göz qabağındadır. Bu illər Azərbaycan çox böyük tarixi inkişafa nail olub: "Biz növbəti seçkilərə də "İlhamla irəli" şüarı ilə gedirik "Ölkənin inkişafı, insanların rifahı naminə" devizi prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramının əsas mahiyyətini təşkil edir. İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş, əhalinin maddi rifah halı yüksəlmiş, respublikamız beynəlxalq tədbirlərə və möhtəşəm idman yarışlarının keçirildiyi bir ölkəyə çevrilmişdir. Məhz buna görə də, biz inanırıq ki, siz seçicilər, bütövlükdə, xalqımız bu xidmətlərinə görə yenidən Cənab İlham Əliyevə səs verəcəklər".

Görüşdə Yeni Azərbaycan Partiyası Ağcabədi rayon şö-





bəsinin üzvü Məhsəti Ağayeva, YAP Ağcabədi rayon təşkilatının sədr müavini Eldəniz Qənbərov çıxış edərək, 2003-2018-ci illərdə ölkədə bərqərar olan iqtisadi yüksəliş, regionların iqtisadi inkişafı Dövlət Proqramının uğurla həyata keçirilməsi, ümumdaxili məhsulun və ölkənin valyuta ehtiyatın artması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, kənd təsərrüfatının və sənayenin inkişafı barədə öz fikirlərini bölüşərək, bu nailiyyətlərin əldə edilməsində əvəzsiz xidmətlərinə görə seçiciləri Cənab İlham Əliyevə səs verməyə səslədilər.

Görüşdə seçicilər adından Zahid Cəfərov, Novruz Yusifov, Məhəmməd Həsənov, Elşən Quliyev çıxış edərək, xalqın rifahı və ölkənin inkişafı naminə gördüyü böyük işlərə görə seçki məntəqələrinə gələrək, İlham Heydər oğlu Əliyevə səs verəcəklərini bəyan ediblər.

## Cənab İlham Əliyevlə möhtəşəm uğurlara doğru

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası uğurla davam etdirilir. Qrafikə uyğun olaraq dünən Xınalıq, Əlik, Buduq İnzibati-Ərazi Dairələrində görüşlər keçirilmişdir.





Görüşdə Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsinin sədri Yusif Abidov YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-2018-ci illər ərzində Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən, sürətli iqtisadi inkişafa nail olmasından danışıb. Qeyd edib ki, Prezident İlham Əliyev bütün fəaliyyəti dövründə Azərbaycanın milli maraqlarını, vətəndaşlarının mənafeyini müdafiə edib, onların sosial rifah halının daha da yaxşılaşdırılması üçün siyasət həyata keçirib. Rayon təşkilatı sədri ölkəmizdəki uğurlarının davamlılığını təmin etmək üçün seçiciləri ölkəmizin gələcək inkişafına səs verməyə çağırıb.

Görüşdə rayon şöbəsinin təbliğat qrupunun üzvləri Süleyman Aslanov, Allahverdi Xudaverdiyev, Hüseynağa Baxışov və digərləri çıxış edərək seçiciləri ölkəmizdəki uğurların davamlılığı naminə partiyamızın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilərdə öz çıxışlarında Möhtərəm Prezidentimiz ətrafında sıx birləşdiklərini qeyd etməklə, seçki günündə bir nəfər kimi seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədi olan İlham Heydər oğlu Əliyevə səs verəcəklərini bildiriblər.

## Seçicilər alternativsiz namizəd Cənab İlham Əliyevə səs verəcəklər

Qobustanda prezidentliyə namizəd İlham Əliyevin təbliğat-təşviqat kampaniyası davam edir. Dünən Qobustan rayonunun Dərəkənd kəndində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin, tərtib olunmuş qrafikinə uyğun olaraq, seçicilərlə görüş keçirilib.






Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev bu gün ölkənin bütün bölgələrində Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində görüşlərin uğurla davam etdiyini bildirib. Respublikamızın, hər yerində olduğu kimi, Qobustan rayonunda da seçkilərin şəffaf keçirilməsi üçün lazimi şərait yaradıldığını vurğulayan Füzuli Gülaliyev çıxışında son illərdə ölkəmizin müxtəlif sahələrdə qazandığı uğurların saysız -hesabsız olduğunu qeyd edib və bildirib ki, görülən işlər Cənab İlham Əliyevin 11 aprel 2018- ci il prezident seçkilərində qələbəsinə tam zəmin yaradır. Xalq stabiliyə, inkişafa və xoşbəxt gələcəyə səs verəcək. Cənab İlham Əliyevə səs vermək növbəti illərdə daha əhəmiyyətli layihələrin gerçəkləşməsi, ölkənin daha da qüdrətlənməsi və zənginləşməsi deməkdir.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin üzvü Atabəy Cahangirov bildirib ki, Cənab İlham Əliyevin gördüyü işlər Onun prezident seçkilərində qələbəsini şəksiz edir: "Xalq reallığa qiymət verir. Elə bir sahə yoxdur ki, orada inkişaf və tərəqqi olmasın. Bu da həyata keçirilən siyasətin əsasında dövlətə və xalqa xidmətin reallığından irəli gəlir".

Ardı Səh. 11

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 10

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin üzvü Zümrüd Şərifova Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə kənd təsərrüfatının inkişafında etdiyi tarixi inqilab haqqında geniş məlumat verərək, qeyd edib ki, Cənab İlham Əliyevin Sərəncamı ilə verilən qərarların həyata keçirilməsi hər gün Azərbaycanın tərəqqisi deməkdir: "Əsasən, əkinçiliklə məşğul olan Dərəkənd kənd camaatı ölkə Prezidenti Cənab İlham Əliyevin kənd zəhmətkeşlərinə olan diqqət və qayğısını hər an hiss edir, Cənab Prezident tərəfindən əkinçiliyin inkişafı üçün verilən subsidiyalara görə kənd zəhmətkeşləri daim minnətdardırlar, seçicilər yekdilliklə İlham Əliyevi dəstəkləyir və Ona səs verəcəklər".

Qobustan rayon Dərəkənd kənd seçicilərindən Elnur Cahangirov, Samir Rəhmanov və başqaları çıxış edərək, ölkədə aparılan köklü islahatlardan bəhs etdilər və bu istiqamətdə Cənab İlham Əliyevin uğurlu siyasət həyata keçirdiyini vurğuladılar. Seçicilər 11 aprel 2018-ci ildə seçki məntəqələrinə gələrək sabitliyə, uğurlu gələcəyə və alternativsiz namizəd Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

## ZƏRDAB

Dünən prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Zərdab rayonunun Əlvənd və Otmanoba kəndlərində seçicilərlə görüşlər keçirilib. Seçicilərlə görüşü Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova açaraq, Cənab İlham Əliyevin ölkə rəhbəri olduğu 15 ilə yaxın müddətdə öl-





kəmizdə gedən hərtərəfli inkişaf barədə ətraflı söhbət aparıb, ölkəmizin balanslaşdırılmış daxili və xarici siyasəti, beynəlxalq nüfuzunun artması, bölgədə aparıcı mövqe tutması, bütün sahələrdə gedən islahatlar, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər və digər vacib məsələlər barədə əsas məqamları görüş iştirakçılarının diqqətinə çatdırıb. "Bizim bir alternativsiz namizədimiz var, o da Cənab İlham Əliyevdir!"-deyə qeyd edən YAP Zərdab rayon təşkilatının sədri, eyni zamanda, seçiciləri fəal olmağa səsləyib.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Vüsalə Kərimova, Zabit Davudov, Ruslan Nemətov, Vəfa Bayramova, Mübariz Umarov Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət kursu barədə söhbət açaraq, aprelin 11-də keçiriləcək prezident seçkilərində seçiciləri partiyanın namizədi İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşlərdə çıxış edən seçicilər - kənd sakinləri də, öz növbələrində, artıq seçimlərini etdiklərini və Cənab İlham Əliyevə səs verəcəklərini, bütövlükdə zərdablıların Yeni Azərbaycan Partiyasının namizədini dəstəklədiklərini, xüsusilə vurğulayıblar.

## UCAR

Dünən Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının təşkilatçılığı ilə rayonun Ramal kəndində "İlhamla irəli" şüarı altında mitinq keçirilib. 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilərinə həsr olunmuş mitinqi giriş sözü ilə YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq, son 15 ildə Azərbaycanda əldə edilən bütün nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyev siyasətinin və bu siyasətin uğurlu davamçısı Prezident İlham Əliyev Cənablarının mütərəqqi fəaliyyətinin dayandığını vurğulayıb və əminliklə qeyd edib ki, daha öncəki seçkilərdə olduğu kimi, Ucar rayonunun əksər seçiciləri, məhz Cənab İlham Əliyevi dəstəkləyərək, seçki günü Ona səs verəcəklər.





Təbliğat qrupunun üzvüləri Alı Babayev və Rahib Rəsulov çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin rəhbərliyi altında 2003-2018-ci illərdə müstəqil Azərbaycanımızın qazandığı mötəşəm tarixi nailiyyətlər haqqında ətraflı məlumat verərək seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi, Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

Seçicilər adından Şahlıq kənd sakini Arif Əhmədov, Ramal kənd sakinləri Züleyxa Qurbanova, Könül Məmmədova və Əlikənd kənd sakini Azadə Xəlilova çıxış edərək, ötən 15 ildə İlham Əliyev Cənablarının hər bir Azərbaycanlının Prezidenti olduğunu sübut etdiyini vurğulamaqla seçkilərdə İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan etdilər.

Mitinqdə iştirak edən gənclər qarşıdakı 7 il üçün daha güclü və qüdrətli Azərbaycan naminə bütün ölkə gəncliyinə "İlhamla İrəli" şüarını səsləndirərək, 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçiriləcək Prezident seçkilərində Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi üçün çağırışlar etdilər.

## Nərimanov rayonunun seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər!

11 aprel 2018-ci ildə ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatında növbəti görüş keçirilib.

Tədbiri YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə istər regionda, istərsə də bütün dünyada qazandığı uğurlardan bəhs edib. "Müasir dövlətimiz, məhz bu siyasət nəticəsində inkişaf edir"-deyə qeyd edən YAP Nərimanov rayon təşkilatının sədri rayon seçicilə-









rini Ulu Öndər Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Azərbaycan Kooperasiya Universitetinin dekanı, professor Vilayət Əliyev, Bakı Humanitar Kollecinin direktor müavini Rasim Rzaxanov çıxış edərək, hər zaman olduğu kimi, bu seçki prosesində də fəal iştirak edəcəklərini və YAP tərəfindən irəli sürülmüş namizədi dəstəkləyəcəklərini vurğulayıblar.

YAP Nərimanov rayon təşkilatı qadınlar şurasının sədri Məhəbbət İbrahimova çıxış edərək bildirib ki, Azərbaycan qadını özünü heç vaxt ölkəmizdəki inkişaf proseslərindən kənarda hiss etməyib. M.İbrahimova qeyd edib ki, qadınlar bu il ölkədə keçiriləcək prezident seçkilərində yaxından iştirak edərək, xalqın namizədi olan Cənab İlham Əliyevə səs verəcəklər.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxış edərək bildirib ki, YAP ümumxalq partiyasıdır və Cənab İlham Əliyev 700 mindən çox üzvü olan bir partiyanın namizədidir. "Bu isə, əslində, Azərbaycan xalqı deməkdir"- deyən Hikmət Babaoğlu söyləyib ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev hər bir Azərbaycan vətəndaşının rifahı, onun inkişafı, gələcəyi üçün uğurlu siyasət həyata keçirir: "Hər şeydən öncə, Cənab Prezident Azərbaycanda ictimai-siyasi sabitlik təmin edib, ölkəmizin milli maraqlarını qoruya bilib, mürəkkəb tarixi bir mərhələdə ətrafımızda terror hadisələrinin, müharibələrin, xaosun baş verdiyi bir vəziyyətdə Azərbaycanı sabitlik adası kimi qoruyub-saxlaya bilib".

Hikmət Babaoğlu vurğulayıb ki, Cənab İlham Əliyev Ali Baş Komandan kimi 2016-cı ilin aprel döyüşlərinə imza atıb: "Bununla da, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi hərbi-siyasi dönüşə nail olub. Beləliklə, sadalayacağımız bu kimi çoxsaylı uğurlar, əlbəttə ki, 11 aprel seçkilərində Azərbaycan xalqının seçimini müəyyənləşdirəcək və xalq öz alternativsiz lideri olan Cənab İlham Əliyevi yenidən Prezident seçəcək"




səs ®
www.sesqazeti.az
facebook Ses Media Holding
24 mart 2018-ci il

# Mən Azərbaycan vətəndaşıyam!

*Millət vəkilinin tribunası*

**Bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil, azad dövlətdə Azərbaycan Respublikasının vətəndaşı kimi yaşayırıq. Biz bunu qiymətləndirməliyik və müstəqilliyi hər şeydən üstün tutmalıyıq.**

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti



Rəşad Mahmudov,
millət vəkili

Mən müstəqil və azad Azərbaycanın vətəndaşıyam. Öz ölkəmin tarixiylə qürur duyuram. Mənim Müstəqillik və Azadlıq tariximin yaşı az olsa da, möhtəşəm və əzəmətlidir. Dünya ölkələri sırasında addımlarım kövrəkdir, amma qətiyyətlidir, inamlıdır, məqsədyönlüdür. Mənim müstəqil dövlətimin hədəfi yeni düşüncəli cəmiyyətdir, modern və qüdrətli dövlət quruculuğudur, torpaqlarımızın bütövlüyü,vətəndaşımızın firavan və təhlükəsiz həyatıdır. Mən də, bir vətəndaş kimi, hər səhərimi bu məqsədlə açıram və fəxr edirəm ki, belə bir Zaman və Məkanda yaşayıram. Bu müqəddəs arzularının başa gəlməsində can qoymuş və can qoyan fədakar insanlarımızın, möhtəşəm tarix yaratmış və bu gün də yaradan şəxsiyyətlərimizin, müdrik və uzaqgörən siyasətçilərimizin yanındayam. Onların fədakar əməyindən və mətanətindən ruhlanaraq, həmvətənlərimlə birlikdə seçkiyə gedəcək və səsimi öz Prezidentimə verəcəyəm.

Ölkəmizin müstəqilliyi və azadlığı məşəqqətlər və qanlar hesabına başa gəlib. Bugünkü Azərbaycanın möhtəşəm qələbələri, onun dünya dövlətləri arasında özünə öncül sıralarda yer tutması, inamla addımlaması, yeni-yeni tarixi səhifələrə imza atması təsadüfi deyil. Əlbəttə, müstəqil dövlət qurmağın, azad yaşamağın siyasi-iqtisadi-coğrafi şərtləri var; amma bundan əlavə, mənəvi-əxlaqi amillər və keyfiyyətlər də vacibdir - fədakarlıq, əzmkarlıq, uzaqgörənlik, müdriklik, ən başlıcası isə millətinə, xalqına sonsuz inam və sevgi tələb edən amillər lazımdır. Bu keyfiyyətlərin hamısı Ulu Öndərimiz Heydər Əliyevdə vardı, O, bunu bacardı, tariximizin ən həlledici məqamında dövlət idarəçiliyini öz çiyninə götürdü, onu müstəqil şəkildə yaşatdı və qoruyub-saxlaya bildi! Ulu Öndərin öz sözləri ilə desək, "müstəqilliyi qoruyub-saxlamaq onu əldə etməkdən qat-qat çətindir".

Əlbəttə, bizim dövlətçilik tariximizin dərin kökləri var; bü günə qədər şanlı tariximizin müxtəlif mərhələlərində formalaşan dövlətlər və onların qurduğu münasibətlər indiki siyasi təcrübəmizin və dövlətçilik ənənələrimizin əsasını təşkil edir. Əslində, bütün mərhələlərdə xalqımızı, onu təmsil edən hər kəsi müstəqillik amalı və azadlıq arzusu birləşdirib. Lakin unutmayaq ki, biz çox həssas bir geopolitik nöqtədə olmuşuq və varıq; tarixən Cənubi Qafqaz regionu imperiyaların savaş meydanı olub, hər dəfə də Azərbaycanın müstəqilliklə bağlı arzuları arzu olaraq qalırdı. Bölgədə strateji maraqlarını təmin etmək üçün bir çox dövlətlər Azərbaycanı döyüş poliqonuna çeviriblər. Ümumiyyətlə, hər bir xalqın həyatında gur həyəcanlar, sarsıntılar və ehtiraslar dövrü olur. Belə dövrlər həm də ictimai-siyasi şəraitlə bağlı olur, insanlar dövrün və zamanın doğurduğu narahat şəraitdə fəaliyyət göstərir, xarici və daxili ünsürlərin təsiri altında gələcək nəsillər üçün faydalı olan işlər görürlər. Bu baxımdan Azərbaycan xalqı da istisna deyil.

Qısaca, yaxın tariximizə nəzər salsaq, bunun şahidi olarıq. XX əsrin əvvəllərində bizim xalqın başında duran işqılı ziyalı adamlarımız da xalqımızı müstəqillik və azadlıq ideyaları ilə silahlandırırdı, onları müstəqil dövlətə sahib olmaq üçün mübarizəyə səsləyirdilər. Beləliklə, 1918-ci ildə bunun nəticəsi olaraq, Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı, amma o, cəmi 23 ay yaşadı. Sovet totalitar rejimi gəldi, xalqımız bu rejimin əsarətində yaşamağa məcbur oldu. Lakin uzun onilliklər ərzində Sovet imperiyası da xaqımızın müstəqillik və azadlıq ruhunu öldürə bilmədi, bu arzu, bu istək ildən-ilə boy atdı və millətin bəşər cərgəsinə daxil olmaq ehtirasını daha da coşdurdu. Xüsusilə, ötən əsrin 80-ci illərinin sonlarında Sovet imperiyasının Qorbaçov hakimiyyəti dövründə xalqımızın azadlıq istəklərini yenə boğmaq istədilər, hər cür vasitələrdən istifadə etməklə təxribatlara əl atdılar, torpaqlarımızı parçalamağa çalışdılar, minlərlə vətəndaşımızı qətlə yetirdilər, yüz minlərlə soydaşımızı evindən-eşiyindən elədilər, tarixi torpaqlarından qovdular, didərgin saldılar və Bakıda Yanvar faciəsi törətdilər... Bir sözlə, Kremlin antimilli siyasəti nəticəsində xalqımız çoxsaylı qurbanlar verdi. Amma onu sındıra bilmədilər və nəhayət, Azərbaycan xalqının tələbi ilə müstəqilliyimiz yolunda ilk siyasi-hüquqi addım atıldı: dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul olundu. "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı" qəbul edildi. Beləliklə, Azərbaycan Respublikası 1918-1920-ci illərdə cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, himni və gerbi dövlət atributları kimi qəbul edildi və Cümhuriyyətin yarandığı 28 may tarixi Respublika Günü kimi qeyd olunmağa başladı. Azərbaycan qısa bir müddətdə dünya birliyi ölkələri və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmaqla, beynəlxalq münasibətlər sisteminin suveren subyektinə çevrildi.

Bundan sonra da Azərbaycan üçün asan dövr olmadı; çox ağır və ağrılı bir zaman gəldi, ölkədə çaxnaşmalar, daxili və xarici qüvvələrin səyi ilə xaos yarandı. Belə bir zamanda, xalq öz ümidgahını - Heydər Əliyevi təkidlə Bakıya dəvət elədi, O da xalqın istəyinə qarşı durmadı və öz gəlişi ilə yeni Azərbaycanın özül daşını qoydu. Məhz Onun yorulmaz fəaliyyəti və uzaqgörən siyasəti nəticəsində, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. Dünyanın ən aparıcı şirkətləri bu möhtəşəm müqavilənin həyata keçirilməsinə qoşuldu, fəqət, ən əsası da buydu ki, ölkəmiz Ulu Öndərin uzaqgörən və məntiqə əsaslanan siyasi əzmkarlığı ilə idarə olunurdu. Məhz bundan sonra regionda yeni geosiyasi vəziyyət yarandı. Təhdidlər və təzyiqlər başlandı, amma bunlar müdrik rəhbəri yolundan döndərə bilmədi. Beləliklə, nailiyyətlər və uğurlar bir-birinin ardınca əldə olundu, Azərbaycan dövlətinin və neftçilərimizin xarici tərəfdaşlarla birgə apardığı məqsədyönlü fəaliyyətinin ilkin nəticələri görünməyə başladı. Əlbəttə, bu əməkdaşlıq peşəkar anlaşmaya, birgə fəaliyyətin koordinasiyasına, tərəflərin mövqe və mənafeyinə qarşılıqlı hörmət və diqqət göstərilməsinə əsaslanırdı. Ötən müddət ərzində görülmüş işlər, aparılmış təhlillər, məqsədyönlü islahatlar nəticəsində dövlətimizin iqtisadi imkanları və gücü qat-qat artdı...

Bütün bunlar bir tarixdir və bu, məhz bizim tariximizdir. Lakin ən ciddi, ən gərgin və ən məsuliyyətli dövr bundan sonra başlandı. Biz dünyanın iki böyük hissəsi - Şərq və Qərbdə yerləşirik. Şübhəsiz, bu amil bizim bir xalq kimi taleyimizdə mühüm rol oynayır. Bir əlimiz Avropada, bir əlimiz Asiyada idrakımızla, zəkamızla, ağlımız və düşüncəmizlə, bütün varlığımızla dünyaya qoşulamağa, onun taleyinin, müasir ruhunun bir parçası olmağa can atdıq. Bu işdə və tarixi missiyanın yerinə yetirilməsində tarix bizə Ulu Öndərimiz kimi uzaqgörən və müdrik bir siyasətçi bəxş elədi. Bizim üçün əsrlər və nəsillər boş yerə keçib getmədi. Bizim üçün dünyaya yol açıldı- biz dünyada tənha ikən dünyaya ictimai-siyasi-mənəvi sərvətlərimizi göstərdik və sübut elədik ki, bəşər idrakının, bəşər maarifinin irəli getməsinə bizim də töhfəmiz var. Bizim də imzamız, bizim də sözümüz və bizim də səsimiz önəmlidir. Biz də vətənimizdə insanların ümumi xeyri üçün münbit mühit yarada bilərik və yaratmışıq.

Bunlar ötən dövrlərin yaddaşının bir parçasıdır...

Bunları niyə xatırlatdım?

Düşünürəm ki, əgər biz bu günü bu və ya digər dərəcədə keçmişlə bağlamasaq, gələcəyimiz də olmaz. Düşünürəm ki, o xalq tarixdə əbədi olaraq yaşaya bilər ki, onun yaddaşı əbədi olsun. Xalq öz tarixini unudanda, onun süqutu başlanır. Keçmiş də, bu gün də, gələcək də bizimkidir, bunların biri-biriylə əlaqəsini qıranda, kim olduğunu, haradan gəldiyini və haraya getdiyini bimezsən.

Son 15 ildə gəldiyimiz yola, ötəri də olsa, nəzər salaq: biz nələrə sahib olmuşuq? Əvvəla, müstəqilliyimiz daha da möhkəmlənmiş, Azərbaycan dünya birliyində sivil və modern dövlət kimi, həm də yeni, özəl dəyərlərlə tanınmış, onun həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri, bütün sahələrdə inkişaf dinamizmi, sözün əsl mənasında, qibtə doğurmuşdur. İkincisi, bu gün Azərbaycan təkcə neft ölkəsi deyil, bu gün Azərbaycan həm də yeni mədəni-mənəvi dəyərləri ilə tanınır, bu gün Azərbaycan multikultural ölkə kimi tanınır, bu gün Azərbaycan idman və turizm ölkəsi kimi tanınır. Bu gün Azərbaycan yeni iqtisadi və sosial cağırışların, nüfuzlu beynəlxalq qurumların tədbirlərinin keçirilməsi üçün əsas məkan kimi seçilirsə, dünyaya özünü demokratik ənənələrə sadiq, eyni zamanda, hüquqi və sosial dövlət kimi təqdim edirsə, deməli, qarşıya qoyulan vəzifələr və qəbul edilən dövlət proqramları öz bəhrəsini verir.

Artıq Azərbaycan iri və mürəkkəb infrastruktur layihələrin reallaşdırılmasında böyük təcrübəsi olan dövlət kimi nüfuz sahibidir. Bu gün Azərbaycanın səsi beynəlxalq təşkilatların kürsülərindən daha gur eşidilir. Dövlət başçısı Cənab İlham Əliyevin qeyd etdiyi kimi, inkişafın Azərbaycan modelinin mövcudluğu ən böyük uğurumuzdur və dünyaya nümunədir. Bəli, Azərbaycan bu gün öz tarixinin ən güclü və qüdrətli dövrünü yaşayır.

Bir neçə kəlmə bizə edilən təzyiqlər barədə demək istəyirəm: bunu, xüsusilə, vurğulamaq istəyirəm ki, Azərbaycanda prezident seçkilərinin aprelin 11-nə təyin edilməsi bizi istəməyən qüvvələrin, eləcə də, işğalçı Ermənistanın ciddi narahatlığına səbəb olub. Düşünürəm ki, bunun bir neçə səbəbi var. Birincisi, mənfur qonşularımızını qısqanclıq hissləridir, axı onlar görür və yaxşı bilirlər ki, bu gün Azərbaycan bütün regionda söz sahibidir. Onun qüdrətli ordusu, iqtisadi gücü və tükənməz maddi-mənəvi dəyərləri var. Belə bir dövlətə, əlbəttə, qısqanclıqla yanaşmalar mümkündür. İkincisi, Azərbaycanın İlham Əliyev kimi güclü, iradəli, qətiyyətli və uzaqgörən siyasi lideri vardır. Xalqı və milləti daha işıqlı, daha firavan gələcəyə apara bilən rəhbəri var. Düşünürəm ki, bizim Prezidentimizin tez-tez dünya ölkələrinin başçıları ilə görüşlərinin səviyyəsini dəyərləndirmək lazımdır. O zaman Azərbaycan dövlətinin və onun başçısının siyasi dəyər və əhəmiyyəti daha aydın görünər. Bunu bizə qısqanclıqla yanaşan bəzi xarici və daxili qüvvələrin özləri də etiraf edirlər. Bütün bunlardan savayı, Azərbaycan bu gün öz siyasətini müstəqil surətdə yürütmək gücündədir. Bizə qarşı hücumların əsas mahiyyətindən biri də elə budur.

Düşünürəm ki, əgər o təzyiqləri edənlər, həqiqətən, bizi anlasıydılar, onda 25 ildən artıq bir müddət ərzində, bir milyondan çox qaçqın və köçkünlərimizin tapdanmış hüquqlarından da danışardılar, Ermənistanı işğalçı dövlət kimi tanıyar, bizim əzəli torpaqlarımızın geri qaytarılması üçün ona təzyiqlər göstərərdilər. Qərb bilməlidir ki, Azərbaycan bütün dost və yaxın dövlətlərlə münasibətlərində sabitdir və öz balanslı siyasətini yürüdür. Buna görə də, hesab edirəm ki, Azərbaycan və onun xarici siyasəti düz yoldadır və bu yoldan bizi Allahdan başqa heç kəs sapındıra bilməz. Azərbaycan Prezidenti İlham Əliyevin sözləriylə desək, "Azərbaycan müstəqil dövlətdir və müstəqil siyasət aparır. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Heç kimin diktəsi ilə oturub- durmuruq və oturub-durmayacağıq da". Özgə boy-buxun, özgə kürəklər üçün nəzərdə tutulan soyuq biçimli münasibətlər hər zaman cansıxıcı və usandırıcı olub. Xüsusilə, xalqını və millətini ürəkdən sevən bir vətəndaş bütün bu xırdalıqları içindən keçirəndə və ölkəsinə qarşı haqsız xarici təzyiqləri hiss edəndə, dözülməz ağrılar duyur. Bu gün mən də bir vətəndaş kimi, bir övlad kimi ölkəmin, dövlətimin yanındayam və müasir tariximə də inanıram. Mən ona da inanıram ki, daha qüdrətli gələcəyimiz bügünkü vətəndaşımızın güvəndiyi, inandığı və arxalandığı müstəqil dövlətimdən asılıdır. Mən bir Azərbaycan vətəndaşı kimi dövlətimin sükanı arxasında mətanətlə duran, öz nümunəsi ilə xalqını daha nəcib və faydalı əməllərin ardınca apara bilən Prezident İlham Əliyevi dəstəkləyirəm. İnanıram ki, mənim kimi milyonlarla həmvətənim yaxınlaşmaqda olan prezident seçkilərində yenə öz səsini İlham Əliyevə verəcək. Müstəqilliyimizi və azadlığımızı sevən hər bir kəs, məncə, bu addımı atmalıdır.

Bir sözlə, Mən həmişə fəxr etmişəm, bu gündə fəxr edirəm ki, Azərbaycan vətəndaşıyam!

# İlham Əliyevin Azərbaycanın inkişafına, xalqların həmrəyliyinin güclənməsinə xidmət edən siyasətinin alternativi yoxdur

## *Azərbaycandakı Rus İcmasının rəhbəri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, millət vəkili Mixail Zabelinin yap.org.az-a müsahibəsi*

***- Mixail Yuriyeviç, Azərbaycan əlamətdar hadisə ərəfəsindədir - qarşıdan prezident seçkiləri gəlir. Belə əlamətdar hadisələr ərəfəsində, adətən, keçilmiş yola nəzər salınır. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin rəhbərliyi ilə keçən son 15 il respublikamız üçün hansı uğurlarla yadda qalıb?***



- Mənim möhkəm qənaətimə görə, seçkilərə qatılan və ölkə rəhbəri olmağa iddia sərgiləyən hər bir kəsin buna həm də bir mənəvi haqqı çatmalıdır. Bu mənada tam qətiyyətlə deyə bilərəm ki, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev əməlləri, gördüyü işlər sayəsində bu haqqı yüz faiz qazanıb. Son 15 ildə Azərbaycanın uğur salnaməsinə istinadən məndə belə bir mövqe formalaşıb ki, İlham Əliyev prezidentliyə namizədlər arasında ən layiqlisidir və Onun seçkilərdə inamlı qələbə çalacağına heç bir şübhə ola bilməz.

Son 15 ildə dövlətimizin sükanı arxasında dayanan İlham Əliyev praqmatik və xəlqi siyasətçidir. O, heç vaxt pafosla danışmır, populist vədlər vermir, əksinə, dövlətin fəaliyyət istiqamətlərini cəmiyyətdən gələn sosial sifarişlər əsasında müəyyənləşdirir. Bütövlükdə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin strateji hədəfi milli maraqları qətiyyətlə qorumaqdan, dövlətin qüdrətini artırmaqdan və onun müstəqilliyini möhkəmləndirməkdən ibarətdir. Belə məqsədyönlü siyasət də, təbii ki, respublikamızı inkişafa istiqamətləndirib. Son 15 ildə Azərbaycan sosial-iqtisadi inkişaf parametrlərinə görə dünyada analoqu olamayan uğurlara imza atıb. Ölkədə cəmiyyət həyatının bütün sahələri yenilənib və müasirləşib. Hər bir ölkənin mənzərəsi müqayisələrdə daha qabarıq şəkildə nəzərə çarpır. Son illərdə biz beynəlxalq miqyasda, təəssüf ki, bir sıra mənfi proseslərin - ciddi kataklizmlərin, müharibələrin, daxili çəkişmələrin, hakimiyyət böhranlarının şahidi oluruq. Azərbaycanda isə sabitlik və təhlükəsizlik mühiti tam təmin edilib, respublikanın potensialı, resursları bütünlüklə quruculuğa istiqamətləndirilib. Bunun da sayəsində ölkəmiz müxtəlif istiqamətlərdə böyük uğurlara nail olur.

Güclü iqtisadiyyat olmadan ölkənin hərtərəfli inkişafından, qarşıda duran vəzifələrin uğurlu həllindən də söhbət açmaq mümkün deyil. Bu mənada son 15 ildə Prezident İlham Əliyevin neft gəlirlərindən səmərəli istifadə etməklə ölkənin iqtisadi müstəqilliyinin təmin edilməsini hədəfləyən siyasətinin önəmini xüsusi qeyd etmək lazımdır. Bəhs olunan dövrdə respublikada neftdənkənar, innovativ əsaslı, elm tutumlu iqtisadiyyat quruculuğu davamlı şəkildə diqqət mərkəzində saxlanılıb. Belə məqsədyönlü yanaşmanın nəticəsidir ki, Azərbaycan qısa müddətdə Cənubi Qafqaz coğrafiyasında ən güclü iqtisadiyyata malik ölkəyə çevrilib. 2004-cü ildən bəri bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri məhz Azərbaycanda qeydə alınıb. Ölkənin qısa müstəqillik tarixində dünya kosmik ailəsinin üzvü olması, müdafiə təyinatlı məhsullar ixrac etməyə başlaması son dərəcə qürurverici haldır.

Bir sıra çətinliklərlə müşayiət olunan yeni şəraitdə də Azərbaycan özünü inamlı hiss edir. Prezident İlham Əliyevin siyasi qətiyyəti sayəsində yeni çağırışlara adekvat aparılan fundamental islahatlar, o cümlədən də müxtəlif istiqamətlər üzrə qəbul edilən strateji yol xəritələri milli iqtisadiyyatın xarici mənfi təsirlərə müqavimət gücünü artırıb və perspektiv inkişaf üçün əlverişli zəmin formalaşıb. Təsadüfi deyil ki, Davos İqtisadi Forumu, Dünya Bankı və digər nüfuzlu beynəlxalq qurumlar öz hesabatlarında Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyini yüksək dəyərləndiriblər. Davos İqtisadi Forumunun son hesabatında Azərbaycan dünyanın 140 ölkəsi arasında ən rəqabətqabiliyyətli iqtisadiyyata malik 35 ölkə sırasında yer alıb ki, bu da böyük uğurdur.

***- Diqqət çəkdiyiniz iqtisadi inkişaf fonunda ölkədə aparılan sosial siyasət barədə hansı fikirləri ifadə etmək mümkündür?***

- Azərbaycan sosial dövlətdir. Son 15 ildə Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyətinin ən uğurlu nəticələrindən biri məhz sosial sfera ilə bağlıdır. Dövlət başçısı dəfələrlə bəyan edib ki, respublikamızda həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Bu strateji kursa uyğun olaraq ölkənin iqtisadi gücünün artması, maliyyə imkanlarının genişlənməsi Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində bilavasitə insanların rifah halının yaxşılaşdırılmasına, gəlir imkanlarının artırılmasına, hətta ən ucqar kəndlərdə belə əhalinin kommunal rahatlıqlarla təmin edilməsinə yönəldilib. İnsanlar ölkənin dinamik inkişafını bilavasitə yaşadıqları bölgələrdə, şəxsi həyatlarında hiss edirlər.

Bütün ölkə boyu müasir sosial infrastruktur quruculuğu Azərbaycanda reallaşdırılan dərin məzmunlu sosial siyasətin əlamətidir. Ötən 15 ildə bütün ölkə boyu 642 tibb ocağı tikilib və yaxud əsaslı şəkildə təmir edilib. Yeni məktəblərin tikintisinin və yaxud əsaslı şəkildə yenidən qurulmasının intensiv hal alması da ölkəmizdə sosial infrastruktur quruculuğuna yaxşı nümunədir. Son 15 ildə Bakı şəhərində və respublikanın bölgələrində 3000-dən çox yeni məktəb tikilib və yaxud əsaslı təmir edilib.

Azərbaycan Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində yoxsulluğun aradan qaldırılması istiqamətində diqqətəlayiq uğurlara imza atıb. BMT tərəfindən qəbul edilən Minilliyin İnkişaf Məqsədlərinə qoşulan respublikamız yoxsulluğu bir fenomen kimi tamam aradan qaldırmağı hədəfləyib. Bu məqsədlə ölkədə davamlı tədbirlər həyata keçirilir. Çox qısa müddətdə yoxsulluğun 50 faizdən 5 faizədək azaldılması böyük nailiyyətdir. Qeyd edək ki, hazırda Azərbaycanda yoxsulluq qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağıdır. Ölkəmiz insan inkişafı indeksini MDB dövlətləri üzrə ən yüksək səviyyəyə çatdırıb.

Yeni iş yerlərinin yaradılması və insanların gəlir imkanlarının artırılması respublikamızda reallaşdırılan dərinməzmunlu sosial siyasətin leytmotivini təşkil edir. Azərbaycan dövlətinin sosialyönümlü iqtisadiyyat quruculuğuna və insanların layiqli iş yerləri ilə təmin edilməsinə xüsusi diqqət və qayğı göstərməsi öz müsbət nəticəsini verib. Son 15 ildə respublika üzrə 1,9 milyon yeni iş yeri açılıb. Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində ölkədə işsizliyin səviyyəsini 5 faizədək aşağı salmaq mümkün olub ki, bu da dünyada ən yaxşı göstəricilərdən hesab olunur.

***- Mixail Yuriyeviç, Azərbaycanı fərqləndirən əsas cəhətlərdən biri də ölkədəki tolerant mühitdir. Respublikamızda reallaşdırılan multikulturalizm siyasəti barədə nə deyə bilərsiniz?***

- Müxtəlif ölkələrdə fərqli etnik-dini mənsubiyyətə malik insanların ciddi təhdidlərlə üzləşdiyi, diskriminasiyaya məruz qaldığı, dözümsüzlük və ksenefobiya hallarının artdığı indiki dövrdə Azərbaycan dövlətinin və cəmiyyətinin dünyaya təqdim etdiyi nümunə tamam fərqli cəhətlərlə səciyyələnir. Azərbaycanın coğrafi mövqeyi elədir ki, ölkəmiz Asiya ilə Avropa arasında təbii bir körpü rolunu oynayır. Məhz bu coğrafi yerləşmə respublikamızın mədəni müxtəlifliyinin formalaşmasına öz müsbət təsirini göstərib.

Prezident İlham Əliyev Azərbaycan xalqının tarixdən gələn tolerantlıq ənənələrinə söykənən məqsədyönlü multikulturalizm siyasəti həyata keçirir. Ölkəmizdə multikulturalizm dövlət siyasətinin ən vacib istiqamətlərindən birinə çevrilib. Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları əsasında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, 2016-cı ilin respublikamızda "Multikulturalizm İli" elan olunması deyilənləri bir daha təsdiqləyir. İndiyədək bircə dəfə də olsun Azərbaycanda yaşayan milli azlıqların hüquqlarını məhdudlaşdıran hər hansı qərar qəbul olunmayıb. Odur ki, ölkə ərazisində yaşayan etnik xalqların nümayəndələrinin cənab İlham Əliyevə böyük rəğbətləri var.

Ölkə daxilində əlverişli tolerantlıq mühitinin təmin olunması ilə yanaşı, Azərbaycan, eyni zamanda, qlobal miqyasda da multikulturalizm dəyərlərinin möhkəmlənməsinə sanballı töhfələr verir. Məlumdur ki, son illərdə Azərbaycan multikultural dəyərlərin təbliğ olunduğu müxtəlif beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən bir məkana çevrilib. 2010-cu ildə respublikamızın paytaxtında Dünya Dini Liderlərinin Ümumdünya Sammiti keçirilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə startı verilən "Bakı prosesi" mədəniyyətlərarası dialoq üçün geniş bir platformaya çevrilib. 2016-cı ildə Bakıda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu baş tutub. Ötən il dekabrın 21-də Bakıda "İslam Həmrəyliyi İli"nin yekunlarına həsr edilmiş konfrans keçirilib. Azərbaycan həm birinci Avropa Oyunlarına, həm də İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi edən bir məkandır.

Bütün bunlar çoxmillətli və çoxkonfessiyalı olan Azərbaycan cəmiyyətində böyük məmnunluq yaradır. Respublikamızın yenilməz gücü də məhz burada yaşayan müxtəlif xalqların həmrəyliyindədir. Azərbaycanlılarla yanaşı, digər etnik və dini mənsubiyyətə malik insanlar ölkədə aparılan siyasəti dəstəkləyirlər. Onlar bundan sonra da respublikanın inkişafına əllərindən gələn köməyi göstərməyə, ərazi bütövlüyümüzün təmin olunmasında fəal iştirak etməyə hazırdırlar.

***- Siz uzun illərdir ki, Azərbaycandakı Rus İcmasına rəhbərlik edirsiniz. Sirr deyilsə, rəhbərlik etdiyiniz icmanın üzvləri seçkilərdə namizədlərdən kimi dəstəkləyəcəklər?***

- Əvvəlcə onu deyim ki, Rus İcması keçmiş ittifaq dövləti dağılandan sonra Azərbaycanda yaranan ən böyük və nüfuzlu ictimai təşkilatlardan biridir. Azərbaycan rusları inkişaf strategiyası Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən olunan demokratik, suveren, iqtisadi cəhətdən uğurla inkişaf edən dövlətdə yaşayan və çalışan tamhüquqlu vətəndaşlardır. Biz sevincimizi və kədərimizi birlikdə bölüşmüşük, dövlətimizin ərazi bütövlüyünün müdafiəsində azərbaycanlılarla hər zaman çiyin-çiyinə dayanmışıq və birlikdə dinc həyat qururuq.

Mən vaxtaşırı xarici ölkələrdə səfərlərdə oluram. Bəzən beynəlxalq toplantılar çərçivəsində postsovet ölkələrindən olan həmkarlarımız bizə Azərbaycanda yaşayan ruslara olan münasibət barədə suallar verirlər. Cavabında bildiririk ki, Azərbaycanda indiyədək ruslara qarşı hər hansı bir şəkildə diskriminasiya faktı qeydə alınmayıb. Əksinə, burada ruslara, rus dilinə daim isti münasibət olub. Tam əminliklə deyə bilərəm ki, Azərbaycanda rus millətinin nümayəndələrinə daha çox hörmət olunur, nəinki Rusiyanın özündə. Ölkə ərazisində rusdilli məktəblər fəaliyyət göstərir, rus dilində qəzetlər nəşr olunur, informasiya agentlikləri sərbəst şəkildə fəaliyyətlərini qurublar, ali məktəblərdə rus dilində tədris proqramları mövcuddur, rus millətindən olanlar işə götürülərkən heç bir məhdudiyyətlə rastlaşmırlar.

İnsanlara nə lazımdır - əmin-amanlıq, normal həyat şəraiti, yaxşı gün-güzəran. Prezident İlham Əliyevin apardığı siyasət respublikanın digər vətəndaşları kimi, biz ruslar üçün də bütün bunları təmin edib. Buradan da icma üzvlərinin dövlətə və ölkə rəhbərinə adekvat münasibəti formalaşıb. İcma üzvləri ilə söhbətlərimdə onlar seçkilərdə fəal iştirak edəcəklərini və hazırkı dövlət başçımız, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin namizədliyini dəstəkləyəcəklərini bildiriblər. Söhbətlərimiz zamanı onlar elə belə də deyirlər: İlham Əliyev ölkəmizin firavanlığının, bizim rahat həyatımızın, gələcəyimizin qarantıdır, Onun apardığı siyasətin alternativi yoxdur!

# Müxalifətin köhnə mərəzi, yaxud "mitinq sevdası"nın arxasında duran səbəblər



***Müxalifət düşərgəsi köhnə vərdişlərindən əl çəkə bilmir. Yenidən küçələrə üz tutur və xarici dairələr qarşısında götürdükləri öhdəliyə uyğun olaraq qarışıqlıq yaratmağa cəhdlər edirlər. Heç təsadüfi deyildir ki, bu cür şoular ölkədə keçirilən seçki prosesləri və beynəlxalq əhəmiyyətli tədbirlər ərəfəsində düzənlənir. Özlərinin də, arada etiraf etdikləri kimi, sosial baza baxımından həmişə yoxsulluq içərisində olan müxaliflər nə qədər çalışsalar da, insanları boş vədlərlə aldadıb arxalarınca apara bilmirlər.***

Çünki iqtidarda olarkən, ölkəni bərbad vəziyyətə salan, səriştəsizlikləri və dövlətçilik sahəsində naşılıqları ilə Azərbaycanı vətəndaş müharibəsi, bölünmək təhlükəsi qarşısında qoyanlar bu gün utanmadan ədalətdən, sədaqətdən və insan hüquqlarının qorunmasından danışırlar. Unudurlar ki, yaxın keçmişdə baş verən xəyanətlərin səbəbkarları kimi, onlar çoxdan siyasət meydanından siliniblər. Ermənilərlə işbirliyi təsdiqlənən, keçmiş silahdaşlarının belə arxa çevirdiyi AXCP sədri Əli Kərimli kimilər düşərgədə nüfuzlarını itirmiş olduqlarının fərqində olmasalar da, hər halda, bu, reallıqdır. Ona görə də, sosial dayaq problemi bu ünsürləri seçkilərə qatılmaqdan uzaqlaşdırdığı halda, mitinqlərə 30 min iştirakçı cəlb edəcəklərini bildirmələri gülüş doğurmaya bilməzdi. 10 mart mitinqində biz bunu müşahidə etdik və görünür, 31 mart tarixində də belə olacaq.

Amma anlamırlar ki, mitinqlər siyasi mübarizə forması olsa da, onun zamanı çoxdan keçib. Mitinqlər və küçə yürüşləri üçün ciddi əsas olmalıdır. Amma bu günün reallıqlarına diqqət yetirmək kifayətdir ki, belə cəhdlərin nə qədər əsassız olduğu bilinsin. Bu cəhdlərin əsas səbəblərindən biri məğlubiyyət qorxusunu ört-basdır etmək, digəri isə xarici himayədarlarının sifarişlərinin icrasının qarşılığında onlardan lazımı miqdarda vəsait qoparmaqdır. İllərdir, müxalif düşərgədə bu vəsaitlərin bölgüsü uğrunda mübarizə gedir. Bu ünsürlərə, mütəmadi olaraq, qrantlar ayıran bəlli fondlar onlardan ayırdıqları vəsaitlərin hesabatlarını tələb edirlər.

Dağıdıcı ünsürlərə xas olan xüsusiyyətlərdən biri, məhz xarici himayədarlarından qopardıqları pulları təkbaşına mənimsəməkdir. Hər bir seçki, eyni zamanda, beynəlxalq tədbirlər öncəsi bu ünsürlərin xarici himayədarları ilə işbirlikləri genişlənir. Yəni xarici himayədarlarının sifarişlərini icra edir və bunun qarşılığında pul qoparırlar. Amma unudurlar ki, şəxsi ambisiyalarının quluna çevrilmələri mənəviyyatlarının tamamilə itməsinə gətirib çıxarıb ki, bunu, xarici dəstəkçilərindən milyonlar qazansalar da, bərpa edə bilməzlər. Keçirilən mitinqlərdə çıxışlardan tutmuş, iştirakçıların müəyyənləşdirilməsinə qədər aparılan bölgü bir daha nümayiş etdirir ki, onlar bu aksiyaları xaricdən gələn sifariş əsasında keçirirlər.

Azərbaycanda əhalinin daha yaxşı yaşaması və firavan həyat sürməsi naminə iqtisadi uğurların sosial islahatların həllinə yönəldilməsi davamlı proses kimi beynəlxalq təşkilatların diqqətini cəlb edir. Maliyyə böhranından əziyyət çəkən inkişaf etmiş dövlətlərlə müqayisədə Azərbaycanın davamlı inkişafı daim yüksək dəyərləndirilir. Son illərdə iqtisadiyyatı 3 dəfədən çox artan, işsizlik səviyyəsi 5 faiz olan, yoxsulluq həddi 5 faizə endirilən Azərbaycanın dövlət büdcəsinin və v alyuta ehtiyatlarının artması da bu inkişafın uğurlu nəticəsidir.

Bir sözlə, "Milli Şura"nın və Müsavatın birgə keçirmək niyyətində olduqları 31 mart mitinqi bu qurumların xülyalarının yenidən suya düşəcəyinə, daha betər ifşa olunacağına dəlalətdir.

***"Səs" Analitik Qrupu***

# Quyruq qapı arasında qalanda...

*Yaxud milli xainləri təlaşa salan səbəb*

***Uzdəniraq xarici məkrli qüvvələr ölkəmizin əldə etdiyi nailiyyətlərə kölgə salmaq üçün hər cür iyrənc vasitə və üsullardan istifadə etməkdən çəkinmirlər. Xüsusilə də, xaricdə adını azərbaycanlı qoymuş və dağıdıcı müxalifətdən partiya bileti alıb xaricdə mühacir həyatı yaşayan qüvvələr öz çirkin niyyətlərini həyata keçirmək üçün ən şərəfsiz və yaramaz bir yol tuturlar. Onlar havadarlarının diqtəsi ilə hərəkət edərək, Azərbaycana qarşı çox iyrənc təbliğat kampaniyası aparırlar. Eyni zamanda, dağıdıcı müxalif qüvvələr də, bir növ, onlarla eyni fikirdə və mövqedə olduqlarını nümayiş etdirmək üçün mənasız aksiyalar keçirməklə məşğul olurlar. Amma həm xarici, həm də müxalifət qüvvələrinin Azərbaycana qarşı məkrli niyyətləri qətiyyən həyata keçməyəcək.***



## Bu, artıq "axırıncı yol"dur

Onsuz da, müxalifət partiyaları heç bir gücə malik deyillər ki, bundan sonra da nəyə isə nail ola bilsinlər. Azərbaycan cəmiyyətində nifrət obyekti olan partiya sədrləri də çox gözəl dərk edirlər ki, onlar yersiz və əhəmiyyətsiz aksiyalar keçirməklə, pozucu niyyətlərini reallaşdıra bilməyəcəklər. Əksinə, xalqın gözündən daha da düşəcəklər. Çünki onların cəmiyyət tərəfindən heç bir dəstəyi yoxdur. Baxmayaraq ki, gecə-gündüz sosial şəbəkələrdə ağıllarına və ağızlarına gələn çıxışları edirlər, statuslar paylaşırlar. Özləri haqda o qədər yüksək fikirdədirlər ki, guya onları tutduqları bu "axırıncı yol"da kimlərsə ölümlə hədələyir. Bu hədələrdən narahatlıqlarını bildirərək, sosial şəbəkələrdə canlı yayımlara çıxaraq, fikirlərini öz "tərəfdarları" ilə bölüşürlər. Niyə fikirləşmirlər ki, axı kimdir bunlar? Özləri demiş, 3-5 nəfərlə nə əldə etməyə çalışırlar? Ancaq xarici havadarlarının diqtəsini həyata keçirməklə məşğuldular. Bununlamı özlərinə "inqilabçı" adını verirlər? Bu, ancaq xarici məkrli qüvvələrin tapşırıqlarını yerinə yetirməkdən başqa bir şey deyil.

## Onlar bu cür anormal hərəkətləri ilə, onsuz da gözdən düşüblər

Xaricdə oturub ölkəmizdə demokratiyanın, firavan həyatın olmamasından danışırlar. Aydındır ki, sapı özümüzdən olan baltaların bu cür hərəkətlərə əl atmalarının səbəbi onların xarici qüvvələr tərəfindən maddi və mənəvi yardım almalarıdır. Ancaq onu da bilməlidirlər ki, bu yola əl atmaqla, öz pozucu əməllərini heç vaxt reallığa çevirə bilməyəcəklər. Ümumiyyətlə, onlar bu cür anormal hərəkətləri ilə, onsuz da gözdən düşüblər. Eyni zamanda, dağıdıcı müxalif qüvvələrin ölkəmiz haqqında pozucu yol tutmaları onların hansı ağılda, hansı əqidədə olmasına və bununla da, xalqın gözündən bir qədər də düşmələrinə gətirib çıxarır. Təbii ki, bu cür xalqa və dövlətə zidd fəaliyyətləri ilə uzağa gedə bilməzlər. Çünki bu cür hərəkətlərin sonu olmur, gec və ya tez cavab verəcəklər. Bu baxımdan, demək olar ki, az müddət sonra məkrli yol tutan AXCP və Müsavat kimi partiyalar və onların xaricdəki "azərbaycanlı" tərəfdarları pərən-pərən olacaqlar. Artıq araşdırmalar və proseslər də bunu deməyə əsas verir.

***AFƏT***



## Daş başına...

**İLHAM**

***Doğrudan da, dünyanın çox əlləm-qəlləm, müəmmalı, həm də təəccüblü işləri varmış. Elə bir işlər ki, hələm-hələm bir para insan ondan baş çıxara bilməz. Bu kimi məsələlərdə ancaq bu işləri düzüb-qoşanlar anlayarlar. Həm də elə əlavə işlər düzüb-qoşarlar ki, Yer-yerindən oynayar. Silah-sursatlar düzüb-qoşarlar ki, nəinki kəndlər-şəhərlər dağılar, hətta dövlətlər viran qalar. Necə ki, Afrikadakı şəhərlər darmadağın edilib, Suriyada, Liviyada, Əfqanıstanda, İraqda yol gedən insan dincini almaq, yorğunluğunu çıxarmaq üçün kölgəsində oturmağa bir ağac belə tapa bilməz. Nə işdisə, bütün bəlalar və fəlakətlər də müsəlmanların başında çatlayır. Amma...***

Amma başları müxtəlif əlhəd, yaxud qəmbər daşlarına dəysə də, müsəlman olan kəs ayılmır ki, ayılmır. Bu, azmış kimi, ona təpik atan, başına müxtəlif silahlar tökən hədəfləri deyil, günahı öz içində axtarmağa çalışır. Görünür, bu səbəbdəndir ki, zamanında Mirzə Ələkbər Sabir - "Cin görürəm, şeytan görürəm, qorxmuram, Harda müsəlman görürəm, qorxuram" - deyə haray çəkib. Nə yazıqlar ki, M.Ə.Sabirin çağırışından 100 ildən də çox vaxt keçməsinə baxmayaraq, müsəlman olan kəs elə yerində də sayır. Dünya təzələnsə də, yenilik və müasirlik günün tələbi olsa da, bir para müsəlman başbilənləri orta əsrlər təfəkkürü ilə düşünür, danışır və təkliflər irəli sürürlər. Hərdən fikirləşirəm ki, Nyutonun başına ağacdan bir alma düşməsilə, cazibə qanununu kəşf elədi, ancaq müsəlmanın başına göydən müxtəlif bombalar, mərmilər atılsa da, ayılmır ki, ayılmır. Amma tez də fikrimi redəktə edirəm, çətin. Bunların başına daş-qaya parçası, Qərbin, ABŞ-ın müasir bombaları yağdırılsa da, yenə də ayılmayacaqlar. Çünki başları intriqalara və mal-dövlət yığmağa qarışıb. Fikir verin, Türkiyə sərhəd boyu ərazilərində terrorçuları zərərsizləşdirmək üçün hərbi əməliyyatlara başlayan zaman ilk etiraz səsini qaldıran müsəlman dövləti İran oldu. Eynilə Azərbaycan erməni terrorçularını Dağlıq Qarabağdan təmizlənməsi siyasətini aparan zaman ilk zərbəni İrandan görmüşdür. Halbuki din və mədəniyyət yaxınlığı ilə yanaşı, İranla yaxın qonşuluq əlaqələri də mövcuddur. Bütün bunlar isə müsəlman dövləti olan İran üçün əhəmiyyətsiz görünür. Nədi-nədi, Azərbaycan iqtisadi, hərbi cəhətdən güclü olar və regionda lider dövlətə çevrilər. Bütün maneələrə, hiylə və məkrli planlara baxmayaraq, Azərbaycan qarşısına qoyduğu məqsədlərə nail oldu. Artıq bu gün Azərbaycan regionun alternativsiz lideridir. Bu yerdə deyiblər, ailə yaşayacaq, dolanacaq və paxıllıq qonşuya qalacaq.

# Salyan sakinindən narkotik maddə aşkarlanıb



***Salyan şəhər sakininin həyətindən 18 ədəd narkotik tərkibli çətənə şitili aşkarlanıb. "Report"un Aran bürosu xəbər verir ki, Salyan şəhər sakini Cəfər Cabbarlı küçəsi, ev 48-də yaşayan, 1968-ci il təvəllüdlü Hüseynov Elçin İzzət oğlunun qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin əkməsi barədə RPŞ-nə məlumat daxil olub.***

Məlumat əsasında polis əməkdaşları tərəfindən onun yaşadığı evin həyətyanı sahəsinə baxış keçirilən zaman həyətyanı sahənin bağ hissəsində yerləşən üstü yarımörtülü yardımçı tikilidən 18 ədəd çətənə şitili aşkar edilərək götürülüb. Faktla bağlı Salyan Rayon Polis Şöbəsində Cinayət Məcəllənin 237. 2.3 maddələri ilə cinayət işi başlanılıb, araşdırmalar aparılır.

# Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun seçkilərlə bağlı təlimatı

***Son bir neçə il ərzində seçkiləri və referendumları müşahidə etmək demokratik keçid prosesini və insanın ümumi hüquqlarını qorumaq sahəsində mühüm vəzifələrdən birinə çevrilib. Seçkilərin gedişinə müşahidənin gücləndirilməsi qlobal demokratikləşmə prosesi ilə birbaşa bağlıdır. Qəbul olunmuş qanunvericiliyə müvafiq şəkildə açıq və şəffaf seçkilər keçirilməsi demokratik cəmiyyətin ayrılmaz tərkib hissəsidir. Siyasi həyatda iştirak etmək hüququ təkcə keçirilən seçkilər üçün vacib deyil, bu, həmçinin, fikri sərbəst ifadə etmək, davranmaq, dinc toplantı keçirmək və təşkilatlanmaq azadlığı kimi əsas insan hüquqlarına sadiqliyi nümayiş etdirir.***

Beləliklə, seçkiləri müşahidə etmək insan hüquqlarına riayətlə birbaşa əlaqədar olduğuna görə, texniki prosesdən də artıq bir təzahürdür. Seçkilər insan hüquqlarının iradəsinin ifadəsidir. Müşahidə, seçkilərlə əlaqədar insan hüquqlarının pozulmasının qarşısını müşahidəçilərin aşkar iştirakı vasitəsilə ala bilər, belə ki, seçki prosesinin düzgünlüyü, məhz həmin vaxt qiymətləndirilir.

Müşahidəçilik təcrübəsi ATƏT regionunda sürətlə inkişaf etdiyinə görə, seçki prosesini müşahidə etmək sahəsində Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) daha dəqiq metodologiyasının işlənib-hazırlanması zərurəti üzə çıxıb. Seçkiləri müşahidə ilə bağlı DTİHB rəhbərliyi bu məsələnin həlli ilə məşğuldur. Büronun rəhbərliyi seçkiləri müşahidə sahəsində DTİHB-nin ümumi metodlarının siyahısını hazırlayır və nümayəndə heyətlərinə müşahidənin aparılmasına dair təcrübi vəsait təqdim edir.

1994-cü ilin dekabrında Budapeştdə keçirilən zirvə görüşü nəticəsində, DTİHB-nin Mandatı daha müfəssəl məzmun aldı; hazırda bu sənəd seçki prosesinə uzunmüddətli müşahidələrə nail olunmasına yönəlib. Təbii ki, seçkiləri müşahidə bir günün işi deyil və yeni mandatda, məhz bu faktın getdikcə daha dərindən dərk edilməsinin nəticəsidir. Seçki prosesinə, bilavasitə seçki günü aparılan müşahidə əsasında hərtərəfli qiymət verilə bilməz. Buna görə də, DTİHB öz fəaliyyətini genişləndirərək seçki prosesinin uzunmüddətli müşahidəsinə nail olunmasına yönəldib və bunu təkcə seçki günü, yaxud seçkilərdən əvvəlki, ya da dərhal sonrakı günlərdə qısamüddətli müşahidələrlə məhdudlaşdırmır.

Belə bir tam yanaşma üsulu uzunmüddətli müşahidəçinin seçki prosesinin müxtəlif dövrlərində ölkədə olmasını tələb edir. Seçki prosesinin gedişi haqqında nəticə çıxarmaq üçün müşahidəçi kütləvi informasiya vasitələrindən, seçki kampaniyası ərzində seçicilərin və namizədlərin qeydiyyatından tutmuş seçkilərin yekun mərhələsinə və səslərin hesablanmasına, nəticələrin elan olunmasına və seçilmiş namizədlərin vəzifələrinin icrasına başlamasınadək seçki silsiləsinin müxtəlif dövrlərini nəzərə almalıdır.

Beləliklə, DTİHB-nin müşahidəçilərdən ibarət nümayəndə heyətinin sahə vəzifələrini, əslində, dörd dövrə bölmək olar: seçkiqabağı dövr, seçkilər günü, bilavasitə, seçkilərdən sonrakı müşahidə dövrü və seçkilər başa çatdıqdan sonrakı uzadılmış müşahidə dövrü. Qısamüddətli müşahidəçilər yalnız seçkilər günü və bilavasitə, seçkilərdən sonrakı müşahidə dövründə işlədikləri halda, uzunmüddətli müşahidəçilər seçkilərin bütün mərhələləri ərzində çalışırlar. Uzunmüddətli müşahidənin məqsədi seçki silsiləsinin müxtəlif mərhələləri haqqında dərin məlumat toplamaqdır. Qısamüddətli müşahidənin məqsədi isə, seçkiləri müşahidənin daha klassik vəzifələrinin yerinə yetirilməsidir: bu cür müşahidə ölkənin bütün ərazisində seçki kampaniyasının son günlərini, seçki gününü və səslərin hesablanmasını qiymətləndirmək üçün müşahidəçilərin geniş iştirakını təmin edir.

Həmin təlimatın strukturu bu fərqi əks etdirir və ayrı-ayrı fəsillər uzunmüddətli və qısamüddətli müşahidəçilərin rollarına həsr olunub. Bu cür bölgülü yanaşmanın prinsipial üstünlüyü bütün seçki prosesi ərzində müşahidəçilərin vəzifələrinin işlənib-hazırlanmasında, eləcə də, hər iki kateqoriyadan olan müşahidəçilərin müxtəlif, amma bir-birini tamamlayıcı rollarının müəyyənləşdirilməsindədir.

ATƏT regionunda seçkiləri müşahidə fəaliyyəti qaydaya salındıqca, aydın olurdu ki, seçkiləri müşahidədə iştirak edən müxtəlif təşkilatlar səsvermənin keçirilməsinə konkret qiymət verməyə çalışmalıdırlar. Eyni zamanda, şübhə doğurmur ki, əgər beynəlxalq təşkilatlar seçkilərə müşahidəni başa vurduqdan sonra məsləhətlərin işlənib-hazırlanmasında əməkdaşlıq edərlərsə, daha yaxşı nəticə əldə oluna bilər. Budapeştdə keçirilmiş zirvə görüşünün Bəyannaməsində DTİHB-nin digər beynəlxalq təşkilatlarla daha sıx əməkdaşlığının zəruriliyi qeyd olunmamışdır.

Bu vəzifələrin həll edilməsi məqsədilə 1997-ci ilin sentyabrında ATƏT-in Parlament Assambleyası (ATƏT PA) ilə DTİHB arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır. Həmin saziş seçkiləri müşahidə edən nümayəndə heyətlərinin fəaliyyətlərinin aşağıdakı sahələrində ATƏT PA ilə DTİHB arasında əməkdaşlığın möhkəmləndirilməsinə yönəldilmiş tədbirləri müəyyənləşdirir:

- seçkiləri müşahidəçilərdən ibarət heyət yerləşdirilənədək, ümumi informasiyanın toplanması məqsədilə tələbatın qiymətləndirilməsi üzrə nümayəndə qrupunun yaradılması;
- seçkiləri müşahidə edən nümayəndələrin bütün iş dövrü ərzində informasiya mübadiləsi;
- brifinq materiallarının əlaqələndirilməsi və brifinq/dibrifinq görüşlərinin təşkili;
- ATƏT PA-nın qısamüddətli müşahidəçilərinə təşkilati kömək göstərilməsi;
- təkrardan qaçmaq naminə müşahidəçilərin bölüşdürülməsinin əlaqələndirilməsi;
- DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı ilə sıx əməkdaşlığı üçün ATƏT PA-nın məsləhətilə ATƏT-in hazırkı sədri tərəfindən ATƏT-in xüsusi əlaqələndiricisinin təyin olunması;
- ATƏT-in xüsusi əlaqələndiricisinin və DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyəti başçısının seçkilərdən sonrakı ilkin birgə bəyanatı;
- razılaşdırılmış məsləhətlərdən və bunların həyata keçirilməsi üçün tədbirlərdən ibarət yekun hesabat.

BMT-nin Baş Assambleyasının 1948-ci ildə qəbul etdiyi insan hüquqları haqqında Ümumi Bəyannamə demokratik təmsil olunmuş hökumət yaradılması istiqamətində fundamental və universal hüququn təminatı üçün şəffaf və açıq seçkilərin rolunu tanıyır. Özlərinin milli siyasi sistemindən və seçki sistemindən asılı olmayaraq, bütün müşahidəçilər İnsan Hüquqları haqqında Ümumi Bəyannamə ətrafında birləşib.

İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, maddə 21:

1. Hər bir insan öz ölkəsinin idarə olunmasında, bilavasitə, yaxud azad seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək hüququna malikdir.
2. Hər bir insan öz ölkəsində ictimai xidmətdən bərabər istifadə etmək hüququna malikdir.
3. Xalqın iradəsi iqtidarın bünövrəsi olmalıdır; xalqın iradəsi ümumi və bərabər seçki hüququ əsasında, gizli səsvermə yolu ilə, ya da azad səsverməni təmin edən digər müvafiq formalarda keçirilməli olan dövri və saxtalaşdırılmayan seçkilərdə öz ifadəsini tapmalıdır.

Bu dövri azad seçkilərin siyasi hüquqların dəstəklənməsinin təminatında oynadığı rol da mülki və siyasi hüquqlara dair Beynəlxalq Pakta və İnsan Hüquqlarının Qorunması haqqında Avropa Konvensiyasına daxil edilib.

1990-cı ildə Kopenhagendə "bəşəri meyarlarla bağlı" keçirilmiş konfransın ikinci iclasında qəbul olunmuş ATƏT qarşısında öhdəliklər də vətəndaşların öz ölkəsinin idarə olunmasında iştirak etmək hüququnun təminatında seçkilərin həlledici rolunu nəzərə alır. Bütün müşahidəçilər seçki prosesini müşahidə ilə əlaqədar ATƏT qarşısında öhdəliklərlə tanış olmalıdırlar.

Bundan başqa, Kopenhagendə qəbul olunmuş sənəddə deyilir ki, xarici və yerli müşahidəçilərin iştirakı seçki prosesinin düzgünlüyünü gücləndirə bilər. Beləliklə, seçkiləri müşahidə etmək, ATƏT üzvü olan dövlətlərin demokratik idarəetmənin tərəqqisi və gücləndirilməsi naminə təmin etdikləri səmərəli və əvəzsiz xidmət kimi qəbul olunub.

Bu mənada, iştirakçı dövlətlər qarşıdakı seçki prosesini izləmək üçün istənilən digər iştirakçı dövlətdən müşahidəçilər dəvət edirlər. Müşahidəçilərdən seçkiləri ATƏT-in öhdəliklərinə müvafiq qiymətləndirməyi xahiş edirlər.

ATƏT qarşısında öhdəliklər, konstitusiya və qanunvericilik əsasnaməsi də daxil olmaqla, qanunlar sistemində əks olunmalıdır (seçkilər haqqında qanun, seçkilər ərzində siyasi partiyaların davranışı haqqında qanun, kütləvi informasiya vasitələri haqqında qanun, cinayət məcəlləsi, seçki prosesinin keçirilməsi qaydaları). Əgər ATƏT qarşısında öhdəliklər mövcud qanunvericilik və qaydalarda öz əksini tapmayıbsa, DTİHB seçkiləri müşahidə etməyə meyilli deyil.

Seçki qanunvericiliyi, rəqabət aparan siyasi partiyaların və namizədlər arasında etimad yaratmaqdan ötrü marağı olan bütün şəxslərin iştirakı ilə aşkar hazırlanmalıdır. Seçkilərə az qalmış qanunvericilik sistemində edilən və seçkilərdən-seçkilərə təkrar olunan əhəmiyyətli dəyişikliklər seçkilərdə iştirak edən siyasi partiyalar arasında qeyri-sabitlik və gözlənilməzlik mühiti yarada bilər.

ATƏT qarşısında öhdəliklər demokratik ənənələr üçün yeddi başlıca sözdə cəmlənə bilər: ÜMUMİLİK, BƏRABƏRLİK, ƏDALƏTLİLİK, GİZLİLİK, AZADLIQ, AŞKARLIQ, MƏSULİYYƏTLİLİK.

ÜMUMİLİK prinsipi həm seçicilər, həm də namizədlər üçün səmərəli, qərəzsiz və ayrı-seçkilikdən uzaq qeydiyyata buraxılışın təminatı kimi başa düşülür. Müvafiq yaş həddinə çatan və qeydiyyat şərtlərini yerinə yetirən vətəndaşlar seçkilərdə iştirak etmək hüququna malik olmalıdırlar.

BƏRABƏRLİK prinsipi bərabər təmsilçiliyin təminatı üçün bütün səslərin eyni çəkidə olmasını tələb edir. Majoritar seçki sistemi zamanı müxtəlif seçki dairələrində seçicilərin sayı arasındakı fərq 10 faizdən çox olmamalıdır. Proporsional təmsilçilik sistemində seçki məntəqələrindəki seçicilərin sayı müxtəlif ola bilər, amma hər bir dairədən olan təmsilçilərin sayı seçicilərin sayına proporsional olmalıdır. Seçicilər seçki məntəqələrinə bərabər və səmərəli yol tapmaq imkanına malik olmalıdırlar.

ƏDALƏTLİLİK prinsipi seçki prosesinin bütün iştirakçıları üçün bərabər şəraiti təmin etməlidir, amma bu prinsip, ən azı seçicilərin bütün namizədlər və onların proqramları barədə informasiya əldə etməsinə təminat yaratmalıdır.

GİZLİLİK prinsipi, yalnız seçici, bülleteni kənar şəxsin iştirakı olmadan bağlı seçki kabinəsində qutuya atdığı təqdirdə, təmin edilə bilər, özü də doldurulmuş bülletenin seçki qutusuna salınma prosesini heç kəs görməməlidir.

AZADLIQ prinsipi vətəndaşlara öz seçimini hədə-qorxusuz etmək imkanını, eləcə də, bütün seçki prosesi ərzində onların özünüidarə, iclas və assosiasiya azadlıqları hüquqlarına riayət olunacağı düşüncəsini təmin etməlidir.

AŞKARLIQ prinsipi, seçkilərin ümumilik və aşkarlıq prinsiplərinə əsaslanan qanunlara müvafiq şəkildə keçirilməsini nəzərdə tutur. Aşkarlıq prosesi seçkilər zamanı saxtakarlıq, yalan imkanını məhdudlaşdırır; beləliklə, səslərin hesablanması seçki məntəqəsi səviyyəsindən başlayan, seçki komissiyasının orta bölmələrində davam edən və milli səviyyədə seçki komissiyalarında başa çatanadək açıq olmalı və təsdiq üçün şübhə doğurmamalıdır.

MƏSULİYYƏTLİLİK prinsipi tələb edir ki, seçilənlərin hamısı seçildikləri vəzifənin icrasına başlayarkən, seçicilər qarşısında məsuliyyətlərini dərk etsinlər.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 24 mart


## Yağlı qidaların kişi sağlamlığına ziyanı



Şimali Karolina Universiteti (ABŞ) alimləri araşdırmalar nəticəsində belə qərara gəliblər ki, yağlarla zəngin olan qidalanma, xüsusilə yağlı ət və pendir növlərinin çoxlu miqdarda qəbulu, kişilərdə prostat vəzi xərçəngnin ən ağır formalarının inkişafına təkan verir.

Belə ki, alimlər 5 il ərzində 2000-ə yaxın prostat vəzi xərçəngi olan kişilərə nəzarət ediblər, onların qidalanmasını, həyat tərzini araşdırıblar. Nəticədə alimlər belə qərara gəliblər ki, qidalanmasına daha çox polidoymamış yağlar olan (məsələn, balıq, qoz və s. kimi məhsullar) kişilərdə prostat vəzi xərçənginin daha yüngül formaları inkişaf edirdi. Əksinə tez-tez yağlı ət, yağlı pendir kimi məhsulları qəbul edən kişilərdə prostat vəzi xərçənginin ən ağır formalarına rast gəlinirdi.

Həmçinin qanda xolesterinin səviyyəsini aşağı salan "statin" preparatları qəbul edən kişilərdə də bu xəstəliyin ağır formalarının inkişafı riski daha aşağı idi. Bu yaxınlarda keçirilmiş digər araşdırma göstərib ki, statin preparatların qəbulu prostat vəzi xərçənginin müalicəsində istifadə oluna bilər və müalicəni daha effektli edə bilər.

## Pudra necə hazırlanır?



Pudra kosmetik vasitədir. Qadınlar ondan kosmetik vasitə kimi istifadə edirlər. Günümüzdə mağazalarda yüzlərlə növ pudralar satılır. İmmunitet.az-ın yazdığına görə, bunlardan bəziləri təbii üsullarla hazırlandığına görə heç bir allergik reaksiyaya səbəb olmur. Bəziləri isə keyfiyyəsiz üsullarla hazırlandığı üçün dəridə səpgilərə və qaşınmalara səbəb olur. Sizlərə təbii üsulla pudranın hazırlanma qaydasını öyrətmək istəyirəm. Pudranın tərkibi aşağıdakılardan ibarətdir:

- **qarğıdalı nişastası**
- **düyü unu**
- **kakao**

Yarım stəkan qarğıdalı nişastası, 1/4stəkan düyü unu və kakaonu bir-birinə qarışdırsanız ev şəraitində pudra hazırlamış olarsınız. Kakaonun az və çox olması sizin dərinizin rənginə uyğun olmalıdır. Dəriniz açıq rəngdədirsə kakaonun miqdarını azaltmaq, tünd rəngdədirsə bir az artırmaq lazım gələ bilir.

## Gündəlik 100 kaloridən artıq qəlyanaltı uşaqlar üçün təhlükəlidir!

Uşaqlara gün ərzində 100 kalorilik və ən çoxu iki qəlyanaltıya icazə verilə bilər, həmin normanın gözlənilməməsi zərərlidir. İngiltərəli tədqiqatçılar apardıqları araşdırmalardan sonra belə nəticəyə gəliblər. "News.sky.com" saytı yazır ki, İngiltərə İctimai Səhiyyəsinin araşdırmaçıları uşaqların gün ərzində ən azı üç sağlam olmayan qəlyanaltı və şəkərli içki qəbul etdiyini müəyyənləşdiriblər. Uşaqların üçdəbirinin gündə dörd və ya daha çox sağlam olmayan qəlyanaltı ilə qidalandığını söyləyən elm adamları bunun tövsiyə edilən şəkər miqdarını üç dəfə keçdiyini bildiriblər. Alimlərin araşdırmalarına görə, uşaqlar şəkərin yarısını qeyri-sağlam qəlyanaltı və içkilərlə qəbul edirlər. Balacaların hər il təxminən 400 biskvit, 120-dən çox tort, çörək və xəmir məmulatları, 100 porsiya şirniyyat, 70 şokolad və dondurma, 150-dən çox qablaşdırılmış meyvə suyu və konservləşdirilmiş qazlı içkilər qəbul etdiyini hesablayan tədqiqatçılar onun piylənmə riskini artırdığı barədə xəbərdarlıq ediblər. Mütəxəssislər təzə meyvə və tərəvəzlərdən istifadənin çoxaldılmasını tövsiyə ediblər.

### Başsağlığı

Şirvan Əbilov Səttar Möhbalıyevə qardaşı

**Faiqin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***




## YAP Qazax rayon təşkilatı "İlhamla irəli" təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir

***Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Partiyamızın namizədi cənab İlham Əliyevin təşviqat kampaniyası çərçivəsində növbəti görüş rayon mərkəzində keçirilib.***




Görüşdə çıxış edən YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov qarşıdan gələn prezident seçkiləri ilə bağlı məlumat verib. YAP rayon təşkilatının sədri deyib ki, Azərbaycan dövləti və Azərbaycan Prezidenti qarşıdakı illərdə əldə olunan bu uğurların davam etməsi istiqamətində yüksək qətiyyətlə səy göstərir. Bunun üçün seçicilər aprelin 11-də seçki məntəqələrinə gedib ölkəmizin gələcək inkişafına-YAP-ın vahid namizədi cənab İlham Əliyevə səs verməlidir.



Çıxış edən millət vəkili Kamran Nəbizadə bildirib ki, Azərbaycanın bugünkü dinamik sosial-iqtisadi inkişafı ölkəmizin yaxın gələcəkdə bütün sahələrdə dünyanın qabaqcıl ölkələrindən birinə çevriləcəyini deməyə əsas verir. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu uğurlar onun layiqli davamçısı, alternativsiz liderimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcək illərdə də davam edəcəkdir: "Vətəndaşlarımız müsbət dəyişikliklərin, inkişafın, sabitliyin növbəti 7 ildə də davam etməsi üçün aprelin 11-də seçki məntəqələrinə getməli və sözügedən inkişafın ölkəmizdə bərqərar olmasına şərait yaradan Prezident İlham Əliyevə səs verməlidir".



Çıxış edən "Odlar Yurdu" Universitetinin rektoru, millət vəkili Əhməd Vəliyev bildirib ki, Prezident İlham Əliyev hər zaman regionaların sosial inkişafını öz diqqətində saxlayıb: "Son 15 ildə regionların sosial-iqtisadi inkişafını özündə əks etdirən dövlət proqramları şəhərlərimizin, kəndlərimizin daha da yüksək səviyyədə abadlaşmasına, bölgələrdə yeni iş yerlərinin açılmasına, inanların mədəni istirahətinin təşkilinə şərait yaradıb. İnanıram ki, seçicilərimiz bu seçkilərdə yekdillikdə Prezident İlham Əliyevə səs verəcəklər".

Çıxış edən Azərbaycan Güləş Federasiyasının I vitse-prezidenti Firdovsi Umudov bildirib ki, ölkəmizdə idmanın inkişafı ilə bağlı uzunmüddətli, planlı addımlar atılır ki, bu özünü əldə olunan uğurlu nəticələrdə göstərir: "Azərbaycanda idmanın maddi-texniki bazası sürətlə genişlənir. Hazırda respublikamızın bütün bölgələrində dünya standartlarına cavab verən Olimpiya idman kompleksləri tikilib istifadəyə verilib. Məhz, Prezident İlham Əliyevin şəxsi səyi sayəsində bölgələrdə gənclərin sağlam şəkildə yetişdirilməsi, ölkəmizin genefondunun gənclərimizin sağlam ruhda böyüməsi üçün əsaslı addımlar atılır".

Çıxış edən İlham Pirməmmədov və digər natiqlər də bildiriblər ki, bu gün Azərbaycan quruculuq meydançasına çevrilib. Qeyd edilib ki, bütün seçicilər bu inkişafın davam etməsini istəyir və aprelin 11-də cənab İlham Əliyevə səs verəcəklər.

Çıxış edən seçicilər də Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevi hər zaman dəstəklədiklərini diqqətə çatdırıblar.


***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**